**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası**

# AZƏRBAYCAN DİLİ

**(Magistr və doktorantlar)**

**Əcnəbi tələbələr üçün**

# P R O Q R A M

**BAKI - 2021**

## İZAHAT VƏRƏSİ

**<u>Fənnin səciyyəsi</u>**

Bakı Dövlət Universitetinin hazırlıq şöbəsində müxtəlif əcnəbi ölkələrdən gələn vətəndaşlar təhsil alır. Bakalavriat, magistratura, doktorantura pillələrindən öncə onlara «Azərbaycan dili» fənni tədris edilir. Fənnin tədrisində başlıca məqsəd onlara Azərbaycan dilinin akademik səviyyədə öyrətmək, bu dildə elmi ədəbiyyatı oxuyub danışmaq, yazacaqları dissertasiyanı müstəqil işləyə bilməkdən ibarətdir.

Proqram 450 saat dərs yükü üçün tərtib olunmuşdur. Tədris materialı 103 dərs şəklində təqdim edilir.

**<u>«Azərbaycan dili» fənninin məqsəd və vəzifələri</u>**

Xarici tələbələrə Azərbaycan dili tədrisinin ümumi məqsədi kompleks xarakter daşıyır: buraya praktik (kommunikativ), tədris və tərbiyəvi məqsədlər daxildir. Praktik məqsəd aparıcıdır, tələbələrdə zəruri kommunikativ səriştənin, daha doğrusu, nitq fəaliyyətinin müxtəlif növlərində: oxu, yazı, danışıq və dinləmədə dil bilgilərinin, nitq vərdiş və bacarıqlarının yaradılması və inkişaf etdirilməsi yolu ilə icra olunur. Proqram «Azərbaycan dili» fənnini xarici tələbələrə tədris etmək üçün hazırlanmışdır.

Dərs zamanı ünsiyyət yalnız öyrənilən dildə, yəni Azərbaycan dilində həyata keçirilir. Beləliklə, dilə daha dərindən nüfuz etmək imkanı yaranır.

**<u>Xarici tələbələr bilməlidir:</u>**

– nitq etiketlərini

– öyrənilən leksik vahidlərin əsas mənalarını, tədris-peşə, məişət və sosial mədəni fəaliyyət sahələrində ünsiyyətə xidmət edən söz və ifadələri.

– təlim və tədrisin bu mərhələsində şifahi yazılı ünsiyyətdə istifadə olunan başlıca qrammatik qayda və hadisələri.

**<u>Xarici tələbələr bacarmalıdır:</u>**

– oxuduğu məlumatı anlamağı;

– oxunan/dinlənilən mətn haqqında məlumat verməyi;

– hər hansı bir mətnin oxunuşu zamanı alınan məlumatı yazılı şəkildə qeyd etməyi;

– ünsiyyət zamanı monoloji çıxışların, eləcə də müxtəlif dialoqların əsas mənasını anlamağı;

– elementar nitq etiketlərinə yiyələnməyi.

Xarici tələbələrə Azərbaycan dilinin tədrisi 4 təməl üzərində qurulub: oxu, dinləmə, danışıq və yazı.

**Oxu**

Xarici tələbələr bacarmalıdır:

– Verilmiş oxu materialını düzgün oxumağı və anlamağı;

– oxuduğu mətndən əsas informasiyanı tapmağı, vacib faktları seçməyi;

– mövzu və ideyanı müəyyənləşdirməyi;

– oxuduğu mətnin əsas məzmununu tam və qısa ifadə etməyi.

**Dinləmə**

Xarici tələbələr bacarmalıdır:

– dinlənilən mətnin məzmununu anlamağı;

– adi tempdə verilən (oxunan) mətnin qısa məzmununu yazmağı, danışmağı.

– dinlənilən mətnə dair sualları cavablandırmağı.

**Danışıq**

Xarici tələbələr bacarmalıdır:

– oxunmuş və ya dinlənilən mətni danışmağı;

– əsas fikirləri ardıcıl olaraq ifadə etməyi;

– müxtəlif məzmunlu dialoqlar tərtib etməyi;

– müəyyən plan əsasında öz çıxışını qurmağı.

**Yazı**

Xarici tələbələr bacarmalıdır:

– rəsmi-işgüzar sənədləri (ərizə, arayış, izahat, tərcümeyi-hal və s.) yazmağı;

– esse, inşa, ifadə şəklində mətnlər yazmağı;
– dinlənilmiş mətnin əsas hissələrini yazmağı;
– gördükləri və oxuduqları əsasında qısa qeydlər etməyi.

**Fənnin başqa fənnlərlə əlaqəsi**

Bu fənn əsasən ədəbiyyat, qismən tarix fənni ilə əlaqələndirilir. Xarici tələbələrə Azərbaycan şair və yazıçıları haqqında məlumat və onların bəzilərinin əsərləri oxu mətnləri şəklində verilir. Azərbaycanın tarixi, coğrafiyası siyasi və mədəni həyatı haqqında məlumatlar ya oxu mətni, ya imla, ifadə şəklində dərslərə salınmışdır. Beləliklə, xarici tələbələr bizim adət-ənənələrimiz, mətbəximiz və s. haqqında az da olsa məlumat əldə edirlər.

**Fənnin tədris formaları**

Bu fənn hazırlıq sektorunda 2 semestr tədris olunur. I semestr 51 həftə müddətində hər gün 6 saat olmaqla bir ay yalnız Azərbaycan dili keçilir. Sonra həftədə 4 və ya 3 dəfə olmaqla 4 saat həcmində dərslər tədris olunur. Beləliklə, 1 ay 240 saat həcmində dərs tədris olunur. II semestr 210 saat həcmində, dərs keçilir, sonda imtahan götürülür.

Gəzintidə bakının və Abşeron yarımadasının turistik mərkəzlərinə (Qala açıq muzeyi, Mərdəkan dendrarisi, qız qalası, Şəhidlər Xiyabanı, İçəri şəhər, Şirvanşahlar sarayı, Xalça muzeyi, Azərbaycan tarixi muzeyi, Minatür kitab muzeyi və s.) gəzintilər təşkil olunur.

| № | Mövzular | Məş-ğələ | Saatların miqdarı |
|---|---|---|---|
| 1. | 1. Salamlaşma<br>2. Azərbaycan əlifbası<br>3. Ə.Cavid «Azərbaycan Respublikasının himni<br>4. Mətn «Azərbaycan dövləti»<br>5. Rəqəmlər (saylar) | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 2. | 1. Şəxs əvəzlikləri<br>2. Xəbərlik kateqoriyası<br>3. S.Vurğun «Azərbaycan» şeiri<br>4. Mətn «Bakı»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 3. | 1. İşarə əvəzlikləri<br>2. Sinonim, antonim və omonimlər<br>3. İmla «Bakı»<br>4. Mətn «Soyadlar»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 4. | 1. Heca, vurğu<br>2. Nitq etiketləri<br>3. İntonasiya. Sual-cavab<br>4.Mətn «Kömək»<br>5.Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 5. | 1. Fonetik hadisələr<br>2. B.Vahabzadə «Azərbaycan-Türkiyə» şeiri<br>3. Yoxlayıcı tapşırıqlar<br>4. Mətn «Qobustan»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 6. | 1. Qoşasaitli və qoşasamitli sözlər<br>2. Orfoepiyaya aid tapşırıqlar<br>3. Şəkil üzrə iş<br>4. İlin fəsilləri<br>5. Cütlərlə iş | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 7. | 1. İsmin hal kateqoriyası<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. «Var» «yoxdur» sözlərinin işlədilməsi<br>4. Mətn «Bakının gəzməli və görməli yerləri»<br>5.Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 8. | 1. İsmin mənsubiyyət kateqoriyası<br>2. Sual əvəzlikləri<br>3. İmla | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |

| | | | |
|---|---|---|---|
| | 4. Mətn «Alim və qayıqçı»<br>5. Dialoq | | |
| 9. | 1. Əsil Azərbaycan sözlərinin xüsusiyyətləri<br>2. Gündəlik məşğuliyyətimiz<br>3. Ahəng qanunu<br>4. Mətn «Qaraca qız»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 10. | 1. Sifət (əlamət bildirənlər)<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Vaxtın saatla göstərilməsi<br>4. Mətn «Gəncə»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 11. | 1. Frazeoloji söz birləşmələri<br>2. Saat neçədir?<br>3. İmla<br>4. Dinləmə materialı<br>5. Cütlərlə iş | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 12. | 1. İsmin kəmiyyət kateqoriyası<br>2. Saylar. Miqdar və sıra sayları<br>3. Xüsusi və ümumi isimlər<br>4. Mətn «Sumqayıt əfsanəsi»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 13. | 1. Feilin indiki zamanı (təsdiq və inkar)<br>2. Keyfiyyət bildirən sifətlər<br>3. Sənət və peşə adları<br>4. Mətn «Dəniz kənarında qoca bir şəhər»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 14. | 1. Feilin şühudi keçmiş zamanı (təsdiq və inkar)<br>2. Şəxs adları bildirən mürəkkəb adların yazılışı<br>3. Şəkil üzrə iş<br>4. Mətn «Azərbaycanın inzibati bölgüsü»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 15. | 1. Feilin nəqli keçmiş zamanı – $mış^4$ (təsdiq)<br>2. İmla<br>3. Feilin əmr şəkli<br>4. Mətn «Şəki xan sarayı»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 16. | 1. Nəqli keçmiş zaman ($-ıb^4$)<br>2. Yoxlayıcı tapşırıqlar | Məş. | 2 s.<br>2 s. 6 s. |

| | | | |
|---|---|---|---|
| | 3. İnşa «Mənim doğma şəhərim»<br>4. Sinifdən xaric oxu<br>5. Cütlərlə iş | | 2 s |
| 17. | 1. Keçmiş zamanın inkarı<br>2. Xəbərlik kateqoriyası keçmiş zamanda<br>3. Dinləmə materialı<br>4. Mətn «Küləklər» | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 18. | 1. Felini qəti gələcək zamanı<br>2. Şəkil üzrə iş<br>3. N.Xəzri «Azərbaycan» şeiri (şaxələnmə)<br>4. Mətn «Dədə Qorqud»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 19. | 1. Feildən düzələn sifətlər<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «Dünyada nə qədər azərbaycanlı var»<br>4. Cütlərlə iş<br>5. Tərcümə | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 20. | 1. Feilin qeyri-qəti gələcək zamanı<br>2. Qeyri-müəyyən miqdar sayları<br>3. İnşa «Mənim arzum»<br>4. Mətn «Xəzər dənizi»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 21. | 1. Hikmətli sözlər<br>2. «Xoşu gəlmək», «xoşlamaq», «xoşuna gəlmək»»<br>3. İmla «Azərbaycan mətbəxi»<br>4. Mətn «Universitetimiz<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 22. | 1. Təyin əvəzlikləri<br>2. Təsirli və təsirsiz feillər<br>3. Oxu. Məshəti Gəncəvinin rübailəri<br>4. Mətn «Lənkəran»<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 23. | 1. Qeyri-müəyyən əvəzliklər<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Oxu. N.Kəsəmənli «Biri vardı, biri yoxdu»<br>4.Sinifdən xaric oxu<br>5. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 24. | 1. Söz birləşmələrinin bir sözlə ifadəsi<br>2. Sadə cümlədə söz sırası<br>3. Mətn S.Vurğunun həyatı | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| | 4. Dialoq | | |
| 25. | 1.Feilin məlum və məchul növü<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «Çay dəstgahı»<br>4. S.Vurğun «Ana» şeiri | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 26. | 1. Rəsmi sənədlərin yazılış qaydası (izahat, arayış)<br>2. İmla «Tar»<br>3. Mətn «Çövkən»<br>4. Slayd izləmək.<br>5. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 27. | 1. Feilin qayıdış növü<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «İsaak Nyuton»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 28. | 1. Vergülün işlənməsi<br>2. Aşıq Ələsgər «Dağlar» şeiri<br>3. Mətn «SOCAR»<br>4. Dialoq. Slayd izləmək | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 29. | 1. «Kimi», «qədər», «üçün» qoşmaları<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn. Tağı Sidqi «Cəsur ürəkli uşaq»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 30. | 1. Defisin işlənmə qaydası<br>2. M.Füzuli «Məni candan usandırdı» qəzəli<br>3. Mətn «Odlar yurdu»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 31. | 1. Sifətin quruluşca növləri (mürəkkəb sifətlər)<br>2. İmla «Nəriman Nərimanov»<br>3. Yazı təshihi<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 32. | 1. Dırnaqların işləmə qaydası<br>2. N.Gəncəvi «Ayüzlü nigarım»<br>3. Mətn «Səadət Sarayı»<br>4.Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 33. | 1. Feilin icbar növü<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Zəlimxan Yaqub «Ordum varsa yurdum var»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| 34. | 1. Üç nöqtənin işlənməsi<br>2. Mətn «44 günlük Vətən müharibəsi»<br>3. Slayd izləmək<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 35. | 1. Feilin şərt şəkli<br>2. İnşa «Mən kiçik olanda»<br>3. Mətn. Nəriman Abbaszadə «Vətən oğlu»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 36. | 1. Arxaizm və neologizm<br>2. Mətn «Naxçıvan muxtar Respublikası»<br>3. Slayd izləmək<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 37. | 1. Feili sifət. Feili sifətin feilə aid xüsusiyyətləri<br>2. İmla «Dəmirağac»<br>3. Mətn. A.Səhhət «Vətən» şeiri<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 38. | 1. Feilin qarşılıq- birgəlik növü<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «20 Yanvar şəhidləri unudulmur»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 39. | 1. Feili sifətin feilə aid xüsusiyyətləri<br>2. Məktubun yazılma qaydası<br>3. N.Gəncəvi «Eşqdir mehrabı uca göylərin» şeiri<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 40. | 1.İki nöqtənin işlənmə qaydası (:)<br>2. İmla «İtirilmiş durğu işarələri»<br>3.Mətn. Ü.Hacıbəyov «Həmsöhbətim»<br>4.Dialoq | Məş. | 2 s.<br>2 s. 6 s.<br>2 s |
| 41. | 1. İş feilləri<br>2. Oxu. İ.Əfəndiyevin «Bahar suları» pyesi. Rollar üzrə oxu<br>3. İfadə. M.İbrahimovun «Qoca meynə» hekayəsi<br>4.Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 42. | 1. Məsdər<br>2. Sinif işi Ö.Vahabzadənin «Qalx ayağa» şeiri<br>3. Dinləmə materialı<br>4. Mətn. «Bakı-2015 Avropa oyunları» | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| 43. | 1. Nitq feilləri<br>2. Şifahi xalq ədəbiyyatı. Bayatılar<br>3. Mətn. Əli Kamil «Əsgər marşı»<br>4. Krossvord üzrə iş | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 44. | 1. Nəqli cümlə<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «Yazın son ayı»<br>4. Şəkil üzrə iş | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 45. | 1. Sual cümləsi<br>2. Yoxlayıcı tapşırıqlar. Sual-cavab<br>3. Mətn «Atəşgah»<br>4. Slayd izləmək. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 46. | 1. Hal-vəziyyət feilləri<br>2. Şifahi xalq ədəbiyyatı «Laylalar»<br>3. Mətn «Od baba»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 47. | 1. Xitab<br>2. Atalar sözü və məsəllər<br>3. Mətn «Azərbaycan Milli tarix muzeyi»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 48. | 1. Məsdərin ismə aid xüsusiyyətləri<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «Əkinçi» qəzeti haqqında<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 49. | 1. Mötərizənin işlənmə qaydası<br>2. Mətn «Xocalı soyqırımı»<br>3. Slayd izləmək «Xocalı qətliyamı<br>4. Mətnə aid suallar | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 50. | I yarım ildə keçirilən dərslərin təkrarı<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Test üzrə iş<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| | **I yarım il** | **Cəmi** | **240** |
| 51. | 1. Feili bağlama. Feili bağlamanın feilə aid xüsusiyyətləri<br>2. İmla «Məktəbin bağında»<br>3. Məmməd Rahim «Bahar gəlsin» şeiri əzbər<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 52. | 1. Məsdər, feili sifət, feili bağlama. Oxşar və fərqli xüsusiyyətləri (Venn diaqramı üzrə)<br>2. Mətn «Novruz bayramı» | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| | 3. «Novruz» mövzusunda slayd izləmək<br>4. Dialoq | | |
| 53. | 1. Feili bağlamanın zərfə aid xüsusiyyətləri<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Mətn «Novruz adətləri»<br>4. Dialoq «Kitab mağazasında» | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 54. | 1. Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətlər.<br>Venn diaqramı<br>2. Mətn. Bunları bilmək maraqlıdır «Bankların yaranması haqqında»<br>3. Şəkil üzrə iş<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 55. | 1. Feilin arzu şəkli<br>2. Dinləmə materialı əsasında ifadə<br>3. Şeir. S.Vurğun «Şair nə tez qocaldın sən» əzbər<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 56. | 1. Yoxlayıcı tapşırıqlar<br>2. Şəkil üzrə iş<br>3. Mətn «Nar bayramı»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 57. | 1. Feilin vacib şəkli<br>2. İmla «Göygöl»<br>3. Süleyman Rüstəm «Müəllim şeiri»<br>4. Dinləmə materialı | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 58. | 1.Yoxlayıcı tapşırıqlar<br>2. Mətn «Qız qalası»<br>3. Slayd izləmək<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 59. | 1. Zərf haqqında məlumat<br>2. H.Cavid «Qız məktəbində» şeir<br>3. Bunları bilmək maraqlıdır. «Psixologiya haqqında»<br>4. Dinləmə materialı | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 60. | 1. Qrammatikaya aid yoxlayıcı tapşırıqlar<br>2. Sinif işi. İlyas Əfəndiyev «Daş hasar»<br>3. Mətn. Qəbələ rayonu<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 61. | 1. Feilin lazım şəkli<br>2. İmla «Meşədə» | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| | 3. Bayatılar<br>4. Slayd izləmək | | |
| 62. | 1.Yoxlayıcı tapşırıqlar<br>2. Mətn «Damcılı bulaq»<br>3. Tərcümə<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 63. | 1. Feilin bacarıq şəkli<br>2. Mətn «Danışma bacarığı»<br>3. Şəkil üzrə iş<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 64. | 1. Maraqlı məlumatlar «Bilirsinizmi»<br>2. Mətn «Neft daşları»<br>3. Slayd izləmək<br>4. İfadəli oxu. Şeir «Neftçiyik biz» | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 65. | 1. Sifətlərin dərəcələri<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. C.Cabbarlı. Şeir «Tellər oynadı»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 66. | 1. Mətn. S.Vurğun «Vaqif» dramı (Vaqiflə Qacarın deyişməsi)<br>2. Slayd izləmək<br>3. Tapmacalar<br>4. İfadə yazı | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 67. | 1. Tərzi hərəkət və zaman zərfi<br>2. Mətn «Burla Xatunun dastanı»<br>3. İfadə yazı<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 68. | 1. Azərbaycan Respublikasının Konstitusiyası<br>2. Hikmət Ziya «Qarabağ» şeiri<br>3. Yoxlayıcı tapşırıq. Krossvord<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 69. | 1. Köməkçi nitq hissəsi «Qoşma»<br>2. Mətn «Aslan və dovşan»<br>3. Mətn əsasında ifadə yazı<br>4. Dinləmə materialı | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 70. | 1. Nida<br>2. Mətn «Azərbaycan çalğı alətlərinin təsnifatı»<br>3. Slayd izləmək<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 71. | 1. Bağlayıcılar (tabelilik və tabesizlik) | Məş. | 2 s. |

| | | | |
|---|---|---|---|
| | 2. İfadə yazı «Dostlar səfərdə»<br>3. Rəsul Rza «Çinar» şeiri<br>4.Dinləmə | | 2 s. 4 s. |
| 72. | 1. İmla. İlyas Əfəndiyev «Yaylaq qonşumuz»<br>2. Mətn «Ad gününün tarixçəsi»<br>3. Krossvord üzrə iş<br>4.Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 73. | 1. Ədat (mənaca növləri)<br>2. Azərbaycan dilində söz ehtiyatını zənginləşdirmək «Moruq» mətni əsasında şaxələnmə<br>3. Dinləmə materialı<br>4. Tərcümə «Ögey ana» | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 74. | 1.Mətn «Heydər Əliyev Fondu»<br>2. Slayd izləmək<br>3. İmla «Hökumət evi»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 75. | 1. Modal sözlər<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. «Nəbi və Tahir» mətni əsasında ifadə<br>4. Sinifdən xaric oxu | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 76. | 1. Sintaqmlar<br>2. Mətn «İlk dəfə Azərbaycanda»<br>3. Dinləmə materialı<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 77. | 1.Miqdar zərfləri<br>2. M.Ə.Sabir. «Millət necə tarac olur olsun, nə işim var» şeiri<br>3. İmla «Koroğlu daşı»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 78. | 1. Mətn «Füsunkar təbiət abidəsi – Batabat»<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Dialoq<br>4. Dinləyib izah etmə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 79. | 1. Yer zərfi<br>2. Dinləmə. Dinləmə mətni əsasında ifadə<br>3. M.Şəhriyar “Azərbaycan” şeiri<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 80. | 1. Leksika. Yoxlayıcı tapşırıqlar<br>2. İmla «Şah İsmayıl Xətai»<br>3. Mətn «Azərbaycan» | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| | 4. Dialoq | | |
| 81. | 1. Sintaksis, söz birləşmələri<br>2. Şəkil üzrə iş<br>3. Yunis Əmrə «Salam olsun» şeiri<br>4. Sinifdən xaric oxu | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 82. | 1. Məntiqi suallar intellektual oyun<br>2. İmla «Nizami Gəncəvi»<br>3.Mətn «BDU-nun beynəlxalq aləmdə yüksəlişi»<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 83. | 1. İsmi birləşmələr<br>2. İfadə yazı «Bakı funikulyoru»<br>3. Sinifdən xaric oxu<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 84. | 1. Mətn Azərbaycan Respublikasının Dövlət Bayrağı»<br>2. Yoxlayıcı tapşırıqlar<br>3. Sual cavab<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 85. | 1. Cümlənin baş üzvləri. Mübtəda. Xəbər<br>2. İfadə yazı «Mərdəkan dendrarisi»<br>3. Cütlərlə iş<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 86. | 1. Mətn «Qobustan»<br>2. Yoxlayıcı suallar<br>3. C.Cabbarlı «Həyat söylə sən kiminsən» şeir<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 87. | 1. Feili birləşmələr<br>2. Xalq mahnısı «Pəncərədən daş gəlir»<br>3. Sinfidən xaric oxu<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 88. | 1. Həmcins üzvlər<br>2. Mətn. C.Cabbarlı «Dilarə»<br>3. Dinləmə mətni əsasında ifadə<br>4. Yoxlayıcı tapşırıqlar | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 89. | 1. Cümlənin II dərəcəli üzvləri<br>2. Mətn «İrqlər»<br>3. İmla<br>4. Testlər üzrə iş | Məş. | 2 s.<br>2 s.    4 s. |
| 90. | 1. İxtisarlar<br>2. Mətn «Azərbaycan milli şirniyyatları» | Məş. | 2 s.<br>2 s.    4 s. |

| | | | |
|---|---|---|---|
| | 3. Yusif Diriliş. Şeir «Bayramların sultanı»<br>4. Dialoq | | |
| 91. | 1. Zərflərin mənaca növləri<br>2. İnşa «Ana» haqqında<br>3. Testlər üzrə iş<br>4. Yoxlayıcı tapşırıqlar | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 92. | 1. Terminlər<br>2. Mətn «Əfsanələrlə dolu Xınalıq»<br>3. Mətn əsasında ifadə tapşırıq 648<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 93. | 1. Mürəkkəb cümlə<br>2. Rəsmi işgüzar sənədlər. Tərcümeyi-hal, Ərizə<br>3. Mətn «Qədim oğuz xalçası»<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 94. | 1. Mətn «Böyük şəxsiyyət-Heydər Əlirza oğlu Əliyev»<br>2. Slayd izləmək<br>3. Yoxlayıcı tapşırıqlar<br>4.Krossvord | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 95. | 1. Bağlayıcılı tabesiz mürəkkəb cümlə<br>2. İmla «Bülbül və qaratikan kolu»<br>3. Təfəkkür feilləri<br>4. Sinifdən xaric oxu | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 96. | 1. Vasitəsiz və vasitəli nitq<br>2. Mətn «Atayla yaşıd qız»<br>3. Tərcümə<br>4. Krassvord üzrə iş | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 97. | 1. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi<br>2. Oxu mətni «H.Əliyev dövlətçilik və dil haqqında»<br>3. Baba vəzir Oğlu. «Sən elə bir Zirvəsən» şeiri<br>4. Dinləmə materialı | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 98. | 1. Mətn «İrəvan xanlığı»<br>2. İnşa «Qəhrəmanlar ölmür»<br>3. Çətin sözlərin izahı<br>4. Dialoq | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 99. | 1. Tabelilik əlaqəsi. Uzlaşma<br>2. Mətn «Gülüş günü»<br>3. İfadə yazı | Məş. | 2 s.<br>2 s. 4 s. |

| | | | |
|---|---|---|---|
| | 4. Səhvlər üzrə iş | | |
| 100. | 1. Məntiqi vurğu<br>2. Mətn «Şuşa şəhərinin tarixi»<br>3. Dialoq<br>4. Tərcümə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 101. | 1. «Hərbi and» dörd dildə<br>2. Bunları bilməlisiniz<br>3. M.Müşviq «Yenə o bağ olaydı» şeiri<br>4. Testlər üzrə iş | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 102. | 1. Esse «İşğaldan azad olunmuş Qarabağ torpaqları»<br>2. Mətn «Abşeron yarımadası»<br>3. Tərcümə. hərbi terminlər<br>4. Dinləmə | Məş. | 2 s.<br>2 s. 4 s. |
| 103. | 1. Müxtəsər və geniş cümlələr<br>2. İfadə yazı «Suqovuşan»<br>3. C.Cabbarlı «Türk sağ ikən» şeiri<br>4. Tərcümə. Bədən üzvləri | Məş. | 2 s. |
| | | **Cəmi** | **450** |

# “AZƏRBAYCAN DİLİ” (ƏCNƏBİLƏR ÜÇÜN) FƏNNİNƏ DAİR MÖVZULARIN QISA MƏZMUNU

## Mövzu № 1

**1. Salamlaşma.**

Nitq etiketlərinə uyğun olaraq salamlaşma: Salam; Sabahınız xeyir; Hər vaxtınız xeyir; Aqibətiniz xeyir; Axşamınız xeyir və s.

**2. Azərbaycan əlifbası.**

Azərbaycan əlifbası 32 hərf, 33 səsdən ibarətdir. K – [ke], [ka], səslərini ifadə edir. Əlifbadakı səslər aşağıdakı kimi təsnif olunur:

Sait səslər: [a], [ı], [o], [u], [e], [ə], [i], [ö], [ü].

Samit səslər: kar: [ç], [f], [h], [x], [k], [p], [s], [ş], [t], [k`], [x`].

Cingiltili səslər: [j], [v], [ğ], [g], [h], [z], [c], [d], [q], [l], [m], [n], [r], [y]. [1,5,6,9,10,11]

1 avqust Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür.

**3.** Ə.Cavad. Azərbaycan Respublikasının Himni

Azərbaycan Respublikası Dövlət Himninin sözləri 1919-cu ildə Ə.Cavad tərəfindən yazılmış, Üzeyir Hacıbəyov tərəfindən musiqisi bəstələnmişdir. 1992-ci il mayın 27-də təsdiqlənən qərarla bu himn Azərbaycan Respublikasının Dövlət Himni olaraq qəbul edilib.

**4.** Azərbaycan dövləti

**5. Rəqəmlər (saylar)**

Rəqəmlər, saylar əşyanın sırasını və miqdarını bildirmək üçün işlədilir. Rəqəmlər 3 cür yazılır:

1) Ərəb rəqəmləri ilə: 1, 2, 3, 4 …

2) Roma rəqəmləri ilə: I, II, III, …

3) Sözlə: birinci, ikinci, üçüncü, bir, iki, …[3,5,6]

**Mövzu № 2**

**1. Şəxs əvəzlikləri. [3,5,6,9]**

Şəxs əvəzlikləri Azərbaycan dilində: mən, sən, o, biz, siz, onlar – şəxs əvəzlikləridir və kim? Sualına cavab verir. Hallanır.

**2. Xəbərlik kateqoriyası.**

Xəbərlik kateqoriyası şəxs şəkilçiləri ilə ifadə olunur:

I şəxs – am$^{2}$ – ıq$^{4}$ (-k)

II şəxs – san$^{2}$ – sınız$^{4}$

III şəxs – dır$^{4}$ – dır$^{4}$ (lar$^{2}$)

Məsələn: Həkiməm – Həkimik

Həkimsən – Həkimsiniz

Həkimdir – Həkimdirlər.[3,5,6,9,10]

**3.** S.Vurğun “Azərbaycan”.

**4.** Mətn “Bakı”.

**5.** Dialoq.

**Mövzu № 3**

**1. İşarə əvəzlikləri.**

Kimə və ya nəyə isə işarə məqsədi ilə işlədilən əvəzliklərə işarə əvəzlikləri deyilir. İşarə əvəzlikləri bunlardır: o, bu, elə, belə, həmin. İşarə əvəzlikləri hansı? Sualına cavab verir. Quruluşca yalnız sadə olur.

**2. Sinonim, antonim, omonimlər.**

Sinonimlər – bəzən eyni bir əşya, eyni bir əlamət və ya hərəkət dildə müxtəlif sözlərlə ifadə olunur. Məsələn: müharibə, dava, savaş – isimləri eyni bir əşyanın adıdır. Yazılışı və deyilişi müxtəlif olan, lakin eyni və ya yaxın mənaları bildirən sözlərə sinonimlər deyilir.

Mənası bir-birinin əksi olan sözlərə antonimlər deyilir: dərə-təpə, az-çox və s.

Omonimlər – deyilişi və yazılışı eyni olan, leksik mənaca müxtəlif olan sözlər omonimlər adlanır: çay (içməli çay; axan çay), qaz (ev quşu; neft). [3,5,6,9,10,]

**3.** İmla “Bakı”

**4.** Mətn “Soyadlar”

**5.** Dialoq.

**Mövzu № 4**

**1. Heca. Vurğu.** [2,5,6,7,10,11]

Heca. Tələffüz zamanı sözün asanlıqla bölünən hissəsinə heca deyilir. Bir hecada bir sait hərf olur.

Vurğu: Azərbaycan dilində vurğunun 3 növü var: 1) heca vurğusu; 2) məntiqi vurğu; 3) həyəcanlı vurğu

**2.** Nitq etiketləri [10,11]

**3. İntonasiya: sual-cavab.** [11]

İntonasiya. Nitqin ahəngi (səsin yüksəlməsi və alçalması), ritmi (vurğulu və vurğusuz), nitqin tempi və ya sürəti, məntiqi vurğusu və s. kimi hadisələrin məcmusuna intonasiya deyilir.

**4.** Mətn "Kömək"

**5.** Dialoq.

**Mövzu № 5**

**1. Fonetik hadisələr.**

Fonetik hadisələr: 5 fonetik hadisə dilimizdə qeyd olunur: assimilyasiya, dissimilyasiya, səs artımı, səs düşümü, yerdəyişmə. Dildəki fonetik hadisə və qanunlar hər bir dilin öz milli xüsusiyyətləri əsasında yaranır. Xüsusən, başqa dillərdən alınma sözlərin ümumxalq dilinə uyğunlaşdırılmasında fonetik hadisə və qanunlar mühüm əhəmiyyət kəsb edir. [1,5,6,10]

**2.** B.Vahabzadə. Azərbaycan-Türkiyə.

**3.** Yoxlayıcı tapşırıqlar.

**4.** Mətn "Qobustan"

**5.** Dialoq

**Mövzu № 6.**

**1. Qoşasaitli və qoşasamitli sözlər.**

Dilimizdə mənşə etibarilə elə alınma sözlər var ki, həmin sözlərdə 2 sait səs yanaşı gəlir. Bur cür sözlər qoşasaitli sözlər adlanır. Məsələn: saat, bədii, təbii, təəssüf, təcrübə və s.

Eynicinsli qoşasamitli sözlər: hədd, zidd, fənn, həzz və s. Müxtəlifcinsli qoşasamitli sözlər: zülm, qəsr, qəbz, əmr, həbs, hüzn, həsr, üzv, kəsr, həbs, mətn və s. [1,5,6,10,11]

2. Orfoqrafiyaya aid tapşırıqlar.
3. Şəkil üzrə iş.
4. İlin fəsilləri.
5. Cütlərlə iş.

## Mövzu № 7

**1. İsmin hal kateqoriyası.**

İsmin hal kateqoriyası. İsimlər başqa sözlərlə əlaqəyə girərkən bəzi qrammatik şəkilçilər qəbul edərək formaca dəyişə bilir. İsimlərin belə dəyişməsi ismin hallanması adlanır. Azərbaycan dilində ismin 6 halı var: adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq. Vətən, Vətənin, Vətənə, Vətəni, Vətəndə, Vətəndən.

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** "Var", "yoxdur" sözlərinin işlədilməsi.

"Var", "yox" sözləri əksmənalıdır. "Var" sözünün mənası təsdiq bildirir: Bizdə çoxlu kitab var. Qeyd edək ki, "var" sözü həm də omonimdir: var (dövlət; təsdiq). [3,5,6,9,11]

**4.** Mətn " – "

**5.** –

## Mövzu № 8

**1. İsmin mənsubiyyət kateqoriyası.**

İsmi başqa nitq hissələrindən fərqləndirən əlamətlərdən biri də mənsubiyyət kateqoriyasıdır. Mənsubiyyətə görə dəyişmə şəxslərlə şəxslər, şəxslərlə əşyalar, əşyalarla əşyalar arasında ola bilər. I və II şəxslərə aid mənsubiyyət şəkilçisi yalnız şəxs və ya əşyanın insana mənsubluğunu bildirir. Məsələn: mənim evim, sənin dostun və s.

III şəxsə aid mənsubiyyət şəkilçisi qəbul etmiş isim isə həm insana, həm heyvana, həm də cansız əşyaya aid ola bilər: evin pəncərəsi, atın ayağı, ananın övladı.

**2. Sual əvəzlikləri.**

Sual əvəzlikləri bütün əsas nitq hissələrinin suallarıdır. Kim? necə? neçə? nə etdi? və s. Sual əvəzlikləri əvəz etdikləri nitq hissələrinin əlamətlərini özündə daşıyır. Sual əvəzlikləri

əvəzliklər də daxil olmaqla bütün əsas nitq hissələrini əvəz edir. [3,5,6,9,10,11]

**3.** İmla.

**4.** Mətn “Alim və qayıqçı”.

**5.** Dialoq.

## Mövzu № 9

**1. Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri.**

Əsl Azərbaycan sözlərinin bir sıra xüsusiyyətləri vardır: 1) Vurğu əsasən son hecaya düşür; 2) Qoşa sait və qoşa samit olmur; 3) Ahəng qanununa tabe olur; 4) Sözdə saitin uzun tələffüz olunmaması; 5) Söz sonunda o, ö, e saitləri gəlməz; 6) Tərkibində “j” olan sözlər Azərbaycan dilinə məxsus deyil.

**2.** Gündəlik məşğuliyyətimiz.

**3. Ahəng qanunu.**

Ahəng qanunu fonetikanın əsas qanunudur. Bütün türk dillərinin əsas qanunudur. Bəzən bu qanunu türk dillərinin “dəmir qanunu” adlandırırlar. Bu qanuna görə, sözdə qalın və incə saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilir. Məsələn: qaranlıqda – sözündə qalın, hərəkətsizlikdir – incə saitlər bir-birini izləyib. [5,6,10,11]

**4.** Mətn “Qaraca qız”

**5.** Dialoq.

## Mövzu № 10

**1. Sifət (əlamət bildirənlər).**

1) Sifət (əlamət bildirənlər) əşyanın əlamət və keyfiyyətini bildirən əsas nitq hissəsidir. Sifət cümlədə ismə aid olub onu təyin edir. Məsələn: qara kəmər, şirin söhbət, ağılı uşaq və s. [3,5,6,10,11]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Vaxtın saatla göstərilməsi.

**4.** Mətn “Gəncə”.

**5.** Dialoq.

**Mövzu № 11**

1. **Frazeoloji söz birləşmələri.**

Frazeoloji söz birləşmələri dildə sabit söz birləşmələridir. Sabit söz birləşmələri frazeoloji birləşmələr, frazeoloji vahidlər və ya frazeologizmlər adlanır. Frazeoloji birləşmələr dedikdə, tərkibcə dəyişməz, hazır şəkildə işlənən məcazi mənalı birləşmələr nəzərdə tutulur. Məsələn: lovğalanmaq – gözü ayağının altını görməmək. [2,5,6,7,11]

2. Saat neçədir?
3. İmla.
4. Dinləmə materialı.
5. Cütlərlə iş.

**Mövzu № 12**

1. **İsmin kəmiyyət kateqoriyası.**

İsmlər kəmiyyət baxımından tək və cəm olur. İsmin ifadə etdiyi əşya 2 və daha artıq olsa, -lar[2] şəkilçisi qəbul edir: Məsələn: şəhər – şəhərlər, yol – yollar, söz – sözlər, tələbə – tələbələr. Cəmlənmək daha çox ümumi isimlərə aiddir. İsimdən əvvəl müəyyən miqdar sayı gələrsə, isim cəm şəkilçisi qəbul etmir: üç otaq, səkkiz uşaq.

2. **Saylar. Miqdar və sıra sayları.**

Əşyanın miqdarını və ya sırasını bildirən əsas nitq hissəsinə say deyilir. Saylar mənaca 2 yerə bölünür: miqdar sayları və sıra sayları. Miqdar sayları mənaca 3 yerə bölünür: 1) müəyyən miqdar sayları; 2) qeyri-müəyyən miqdar sayları; 3) kəsr sayları.

Sıra sayları əşyanın sırasını bildirir, -ıncı[4] şəkilçilərilə düzəlir: beşinci, altıncı və s.

3. Xüsusi və ümumi isimlər.

Cəmiyyətdəki mövqeyinə və həmcinsliyinə görə əşyalar 2 qrupa bölünür: ümumi isimlər, xüsusi isimlər. Hər ikisinin əşya adı bildirməsi, hallanması, mənsubiyyətə görə dəyişməsi və quruluşca 3 yerə bölünməsi oxşar cəhətlərdir. Ümumi isimlər: ağac, kənd və s. Xüsusi isimlər: Kür, Araz, Bakı, Gəncə, Aygün və s. [3,5,6,11]

**4.** Mətn “Sumqayıt əfsanəsi”.
**5.** Dialoq.

## Mövzu № 13

**1. Feilin indiki zamanı (təsdiq və inkar).**

Feilin indiki zamanı hərəkətin söhbət gedən vaxt icra edildiyini bildirir və -ır$^{4}$ şəkilçisi ilə düzəlir. İnkar feillər indiki zamana görə dəyişəndə inkar şəkilçisinin (-ma$^{2}$) saiti (-a$^{2}$) düşür: görür – görmür, gəlir – gəlmir və s.

**2. Keyfiyyət bildirən sifətlər.**

Keyfiyyət bildirən sifətlər: yaxşı, pis, çalışqan, zəif. [3,5,6,10,11]

**3.** Sənət və peşə adları.
**4.** Mətn “Dəniz kənarında qoca bir şəhər”.
**5.** Dialoq.

## Mövzu № 14

**1. Feilin şühudi keçmiş zamanı (təsdiq və inkar).**

Feilin şühudi keçmiş zamanı hərəkətin keçmişdə icra olunub olunmadığını qətiyyətlə bildirir və -dı$^{4}$ şəkilçisi ilə düzəlir: gəldi, baxdı, aldı, çatdı və s.

**2. Şəxs adları bildirən mürəkkəb adların yazılışı.**

Şəxs adları bildirən mürəkkəb adlar 2 və daha artıq sözün birləşməsi ilə yaranır: Əliheydər, Əliabbas, Fatmanisə, Əliağa, Aygün və s.[3,5,6,9,10,11]

**3.** Şəkil üzrə iş.
**4.** Mətn “Azərbaycanın inzibati bölgüsü”.
**5.** Dialoq.

## Mövzu № 15

**1. Feilin nəqli keçmiş zamanı –mış$^{4}$ (təsdiq).**

1) Feilin nəqli keçmiş zamanı keçmişdə icra edilmiş və ya edilməmiş hərəkət haqqında nəql yolu ilə məlumat verilir. Nəqli keçmiş zaman -mış$^{4}$ şəkilçişi ilə düzəlir. Məsələn: çağırmışam, çağırmışsan, çağırmışsınız və s.[3,5,6,9,10,11]

2. İmla.
3. Feilin əmr şəkli.
4. Mətn "Şəki xan sarayı".
5. Dialoq.

## Mövzu № 16

**1. Nəqli keçmiş zaman (-ıb$^4$).**

Nəqli keçmiş zaman II və III şəxsdə -ıb$^4$ şəkilçisi vasitəsilə də düzəlir: Məsələn: gəlibsiniz, çatıbsınız və s. [3,5,6,9,10,11]

2. Yoxlayıcı tapşırıqlar.
3. İnşa "Mənim doğma şəhərim".
4. Sinifdən xaric oxu.
5. Cütlərlə iş.

## Mövzu № 17

**1. Keçmiş zamanın inkarı.**

Keçmiş zamanın inkarı -ma$^2$ şəkilçisi ilə düzəlir: gəlmişdi – gəlməmişdi, oxumuşdu – oxumamışdır, gəldi – gəlmədi, çatdı – çatmadı.

**2. Xəbərlik kateqoriyası keçmiş zamanda.**

Xəbərlik kateqoriyası keçmiş zamanda -idi şəkilçisi ilə düzəlir: Məsələn: gəlmişdir, oxumuşdur.idi.həkim idi, maraqlı idi. [3,5,6,9,10,11]

3. Dinləmə materialı.
4. Mətn "Küləklər".

## Mövzu № 18

**1. Feilin qəti gələcək zamanı.**

Feilin qəti gələcək zamanı feilə -acaq$^2$ şəkilçisini artırmaqla düzəlir. Məsələn: yazacağam – yazacağıq, yazacaqsan – yazacaqsınız, yazacaq – yazacaqlar.

2. Şəkil üzrə iş.
3. N.Xəzri "Azərbaycan" şeiri (şaxələnmə).
4. Mətn "Dədə Qorqud".
5. Dialoq.

**Mövzu № 19**

**1.** Feildən düzələn sifətlər.

Feildən düzələn sifətlər aşağıdakı şəkilçilər ilə düzəlir: -ağan$^2$, -ar$^2$, -qan(-kən), -ğın$^4$, -qın$^4$, -ıcı$^4$, -unc$^4$, -maz$^2$, -ma$^2$, -ı$^4$, -ə. qaçağan, axar, çalışqan, azğın, əzgin, vurğun, açıq, uçuq, qırıcı və s. [3,5,6,11]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "Dünyada nə qədər azərbaycanlı var".

**4.** Cütlərlə iş.

**5.** Tərcümə. [8]

**Mövzu № 20**

**1. Feilin qeyri-qəti gələcək zamanı.**

Feilin qeyri-qəti gələcək zamanı feilə -ar$^2$ şəkilçisini artırmaqla düzəlir. Feil saitlə bitərsə, -a$^2$ şəkilçisi "y" bitişdirici samitlə birləşir: tapar, bəstələyər. Bu zaman da bəzi feillərdə tələffüz fərqi də yaranır. [3,5,6,11]

**2.** Qeyri-müəyyən miqdar sayları.

**3.** İnşa "Mənim arzum".

**4.** Mətn "Xəzər dənizi".

**5.** Dialoq.

**Mövzu № 21**

**1.** Hikmətli sözlər.

**2.** Xoşu gəlmək, xoşlamaq, xoşuna gəlmək.

**3.** İmla "Azərbaycan mətbəxi".

**4.** Mətn "Universitetimiz".

**5.** Dialoq.

**Mövzu № 22**

**1. Təyini əvəzliklər.**

Təyini əvəzliklər əşyanı ümumi şəkildə müəyyən etmək üçün işlədilən əvəzliklərə deyilir. Təyini əvəzliklər bunlardır: hər, bütün, filan, öz. Təyini əvəzliklər necə? hansı? Suallarına cavab verir. [3,5,6,9]

**2.** Təsirli və təsirsiz feillər.

Təsirli və təsirsiz feillər hərəkətin obyektə münasibətinə görə 2 qrupa bölünür: təsirli feillər, təsirsiz feillər. Özündən asılı olan, yəni idarə etdiyi sözlərin ismin təsirlik halında işlənməsini tələb edən feillərə təsirli feillər deyilir. İsmin təsirlik halının sualına cavab verir. Məktubu yaz (təsirli feil), uşaqları gətir (kimi?).

Özündən asılı olan feilin ismin təsirlik halında işlənməsini tələb etməyən feillərə təsirsiz feillər deyilir: xörək bişdi (nə?), məktub gəldi (nə?). [3,5,6,9,10]

**3.** Məhsəti Gəncəvinin rübailəri.

**4.** Mətn "Lənkəran".

## Mövzu № 23

**1. Qeyri-müəyyən əvəzliklər.**

Qeyri-müəyyən əvəzliklər də şəxs əvəzlikləri kimi ismi əvəz etsə də, onların mənasında qeyri-müəyyənlik var.

Qeyri-müəyyən əvəzliklər: hamı, hər kəs, hər nə, heç nə, hər şey, hərə, bəzisi, kimi isə, kimsə, nəsə, biri, kimi, filankəs, birisi, bəziləri. Qeyri-müəyyən əvəzliklər hallanır: kimi, kiminin, kiminə, kimini, kimində, kimindən. Qeyri-müəyyən əvəzliklər kim? nə? Suallarına cavab verir.[3,5,6,9]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Oxu. N.Kəsəmənli. "Biri vardı, biri yox".

**4.** Sinifdən xaric oxu.

**5.** Tərcümə.

## Mövzu № 24

**1. Söz birləşmələrinin bir sözlə ifadəsi.**

Dildə iki cür söz birləşməsi mövcuddur: sərbəst və sabit söz birləşmələri. Sabit söz birləşmələri frazeoloji birləşmələr (frazemlər) adlanır. Nitqdə frazeoloji birləşmələr geniş istifadə edilir. Bu söz birləşmələrinin tərkibi dəyişməz olur. Məsələn: lovğalanmaq – gözü ayağının altını görməmək, qorxmaq – sıçan deşiyinə girmək, şübhələnmək – gözü su içməmək, yorulmaq – əldən düşmək. [4,5,6]

**2.** Sadə cümlədə söz sırası.

**3.** Mətn "S.Vurğunun həyatı".

**4.** Dialoq.

## Mövzu № 25

**1. Feilin məlum və məchul növü.**

Feilin məlum növündə iş görən qrammatik cəhətdən məlum olur: dur, yat, götür və s. Bu feillər həm təsirli, həm də təsirsiz feillərdən ibarət olur. Məlum növ feilin yeganə növüdür ki, quruluşca həm sadə, həm düzəltmə, həm də mürəkkəb ola bilir. Məsələn: oxu, vidalaş, atılıb-düşür və s.

Məchul növ feillərdə iş görən qrammatik cəhətdən məlum olmur. Məsələn: otaq yuyuldu cümləsində otağı kimin yuduğu məlum deyil. Məchul növ feillər düzəltmək üçün təsirli feillərə -ıl$^4$, -ın$^4$, -n şəkilçilərindən biri artırılır. Məsələn: kağız cırıldı, soğan soyuldu, qapı döyüldü, ot çalındı, lövhə silindi və s. [3,5,6,9]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "Çay dəsgahı".

**4.** S.Vurğunun "Ana" şeiri.

## Mövzu № 26

**1. Rəsmi sənədlərin yazılış qaydası.**

Rəsmi sənədlər rəsmi üslubun tələblərinə uyğun olaraq vahid formada hazırlanır. Məsələn: Ərizə "Ərizə" sözü ərəb mənşəli ərz sözündən olub müraciət etmək deməkdir. Məzmununa görə ərizə şikayət və xahiş xarakterli olur. Məsələn:

*Bakı şəhəri A.Mustafayev adına*
*202 nömrəli məktəbin direktoru*
*Qasım Qasımova*
*həmin məktəbin XI$^a$ sinif şagirdi*
*Həsən Məmmədovdan*

*Ərizə*

*Səhhətimlə bağlı mənə 20-22 oktyabr 2021-ci il tarixlərdə icazə verməyinizi xahiş edirəm.*

*İmza: _________*
*Tarix: 19.10.2021*
[5,9,10,11]

**2.** İmla "Tar".

**3.** Mətn "Cövkən".

**4.** Slayd izləmək. Dialoq.

**Mövzu № 27**

**1.** Feilin qayıdış növü.

Qayıdış növ feillər iş görənin işi öz üzərində icra etdiyini bildirir. Məsələn: hava açıldı, ürək döyündü və s. Qayıdış növ feillər əsasən -ın4, -n, ıl$^{4}$ şəkilçiləri vasitəsi ilə təsirli feillərdən düzəlir və təsirsiz olur. Məsələn: geyindi, soyundu və s. [3,5,6,9]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "İsaak Nyuton".

**4.** Tərcümə.

**Mövzu № 28**

**1.** Durğu işarələri. Vergülün işlənməsi.

Vergül (,) sözləri, birləşmələri və cümlələri sərhədləşdirmək üçün işlədilən durğu işarəsidir. Məsələn: İsmayıllı yurdu saf havası, zəngin təbiəti, dumduru çeşmələri ilə məşhurdur.[10,11]

**2.** Aşıq Ələsgər "Dağlar" şeiri.

**3.** Mətn "Sokar".

**4.** Dialoq. Slayd işləmək.

**Mövzu № 29**

**1. "Kimi", "qədər", "üçün" qoşmaları.**

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq hallarında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissələrinə qoşma deyilir. Məsələn: evə kimi, səndən başqa, bunun üçün, quştək, sənədə dair, kitabdan əlavə və s. [3,5,6,9,10]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn. Tağı Sidqi "Cəsur ürəkli uşaq".

**4.** Tərcümə [8]

**Mövzu № 30**

**1. Defisin işlənmə qaydası.**

Defis başlıca olaraq, sadə cümlədə həmcins üzvlərə aid ümumiləşdirici sözlərdən, aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ümumilik bildirən tərkib hissədən əvvəl qoyulur və əlavə cümlə və sözlərin hər iki tərəfindən, vasitəsiz nitq dialoq şəklində qurulduqda vasitəsiz nitqdən əvvəl və sonra işləndilir.

Məsələn: Ev, həyət, küçə – hər tərəf güllə bəzədilmişdir. Dedi: – A bala, hara gedirsən gecə vaxtı? [11]

**2.** M.Füzuli "Məni candan usandırdı" qəzəli.

**3.** Mətn "Odlar yurdu".

**4.** Dialoq.

## Mövzu № 31

**1. Sifətin quruluşca növləri.**

Sifət quruluşca sadə, düzəltmə, mürəkkəb olur. Sadə sifətlər quruluşca bir kökdən ibarətdir: qara, sarımtıl, qaraşın, uzaq, yaxın, gözəl. Düzəltmə sifətlər, əsasən isim və feillərdən düzəlir. Sifətlər düzəlmə yoluna görə iki yerə bölünür. İsimdən düzələn sifətlər, feildən düzələn sifətlər: dadlı, duzlu, həvəsli, zarafatcıl, ölümcül, ağacdakı, həyətdəki, dünənki və s. Feildən düzələn sifətlər: qaçağan, satqın, qorxunc, azğın, düzgün, çalışqan və s. [3,5,6,9,10]

**2.** İmla "Nəriman Nərimanov".

**3.** Yazı təshihi.

**4.** Tərcümə.

## Mövzu № 32

**1. Dırnaqların işlənmə qaydası.**

Yazılı nitqdə dırnaqlar fərqləndirici funksiyanı yerinə yetirir. Bu durğu işarəsi vasitəsiz nitqdə işlənir. Məsələn: Heydər Əliyev demişdir: "Müstəqilliyimiz dönməzdir, əbədidir". İlham Əliyev: "Qarabağ Azərbaycandır!" – deyir. [11]

**2.** N.Gəncəvi "Ayüzlü nigarım".

**3.** Mətn "Sədaət sarayı".

**4.** Dialoq.

## Mövzu № 33

**1. Feilin icbar növü.**

İcbar növ feillərdə hərəkəti danışan və ya haqqında danışılan şəxs deyil, başqası icra edir. Məsələn: Usta məktubu yazdırdı. Burada danışan mənəm, işi icra edən ustadır, məktubu yazan isə başqasıdır. İcbar növ feillərin sonuna -dır$^4$, bəzən də -t şəkilçisi

artırmaqla düzəlir. Məsələn: yazdır, gəzdir, oxutdur və s. -dır[4] və -t şəkilçilərini təsirsiz feillərə əlavə etdikdə icbar növ deyil, sadəcə təsirli feil yaranır: sus+dur, soyu+t və s. [3,5,6,9,10]

**2.** Yoxlayıcı tapşırıqlar.
**3.** Zəlimxan Yaqub "Ordum varsa yurdum var".
**4.** Tərcümə.

## Mövzu № 34

**1.** Üç nöqtənin işlənməsi.

Üç nöqtə yazılı nitqdə ayırıcı funksiyanı yerinə yetirir. Üç nöqtə cümlənin əvvəlində qoyulduqda fikrin əvvəli olduğunu bildirir. Cümlənin ortasında və sonunda üç nöqtə qoyulduqda fikrin bitmədiyini bildirir. Məsələn: Kim bilir bu xəstəliyin sonu nələr gətirəcək... [11]

**2.** Mətn "44 günlük Vətən müharibəsi".
**3.** Slayd izləmək.
**4.** Dialoq.

## Mövzu № 35

**1. Feilin şərt şəkli.**

Feilin şərt şəkli hərəkətin icrasının müəyyən şərtlə bağlı olduğunu bildirir. Şərt şəkli feilə -sa[2] şəkilçisini artırmaqla düzəlir. Məsələn: gəlsə, oxusa və s. Feilin şərt şəkli zamana görə dəyişə bilmir, məzmununda gələcək zaman anlayışı olur. Şərt şəkli şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişir: Məsələn: gəlsəm, gəlsən, gəlsə, gəlsək, gəlsəniz. [3,5,6,9,10]

**2.** İnşa "Mən kiçik olanda".
**3.** Mətn. Nəriman Abbaszadə "Vətən oğlu".
**4.** Tərcümə.

## Mövzu № 36

**1. Arxaizm və neologizm.**

Arxaizmlər. Əşya və ya hadisənin adını ifadə edən söz köhnələrək yenisi ilə əvəz olunur. Bu cür köhnəlmiş sözlərə arxaizmlər deyilir. Tarixizmlərdən fərqli olaraq, arxaizmlər elə sözlərdir ki, onların ifadə etdiyi əşya və ya hadisələr bu gün də mövcuddur.

Məsələn: dəyə (komacıq), altun (qızıl), ayıtmaq (demək), varmaq (getmək), iraq (uzaq) və s. [2,5,7]

**2.** Mətn "Naxçıvan Muxtar Respublikası".

**3.** Slayd izləmək.

**4.** Dialoq.

## Mövzu № 37

**1.** Feli sifət. Feili sifətin sifətə aid xüsusiyyətləri.

Həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyan sözlər feili sifət adlanır. Feili sifət şəkilçiləri: -mış$^4$, -an$^2$, -acaq$^2$, -ası$^2$, -malı$^2$.

Feili sifətin sifətə məxsus xüsusiyyətləri:

1) əşyanın əlamətini bildirir, necə? nə cür? hansı? Suallarından birinə cavab verir.

2) aid olduğu ismin əvvəlində gəlir. Məsələn: qurumuş budaq, alınacaq kitab və s.

3) cümlədə təyin vəzifəsində işlənir.

4) xəbərlik şəkilçiləri qəbul edir, ismi xəbər olur.

5) sifət kimi substantivləşə bilir və bu zaman cümlədə isim kimi çıxış edir. Məsələn: Gələni (kimi?) tanıdın?

Feili sifətin feilə məxsus xüsusiyyətləri:

1) zaman mənasını bildirir.

2) təsirli və ya təsirsiz olur: <u>oxuyan</u> qız (təsirli), <u>baxan</u> oğlan (təsirsiz).

3) növ bildirir. Məsələn: qazılan torpaq (məchul növ), görüşən uşaqlar (qarşılıq növ).

4) təsdiq və ya inkar olur. Məsələn: ağlayan uşaq (təsdiq), ağlamayan uşaq.

5) hərəkət bildirir. [3,5,6,9,10,11]

**2.** İmla "Dəmirağac".

**3.** Mətn. Abbas Səhhət "Vətən" şeiri.

**4.** Tərcümə. [8]

## Mövzu № 38

**1.** Feilin qarşılıq – birgəlik növü.

Feilin qarşılıq – birgəlik növü hərəkətin qarşı-qarşıya və ya birgə icra olunduğunu bildirir. Qarşılıq növ feilləri düzəltmək

üçün -ış[4] (-ş) şəkilçisindən istifadə olunur. Məsələn: yazışmaq, görüşmək, salamlaşmaq və s. Qarşılıq – birgəlik növ feillər təsirsiz olur. [3,5,6,10]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "20 Yanvar Şəhidləri unudulmaz".

**4.** Dialoq.

## Mövzu № 39

**1. Feili sifətin feilə aid xüsusiyyətləri.**

1) Feili sifətin feilə məxsus xüsusiyyətləri:

1) zaman mənasını bildirir.

2) təsirli və ya təsirsiz olur: <u>oxuyan</u> qız (təsirli), <u>baxan</u> oğlan (təsirsiz).

3) növ bildirir. Məsələn: qazılan torpaq (məchul növ), görüşən uşaqlar (qarşılıq növ).

4) təsdiq və ya inkar olur. Məsələn: ağlayan uşaq (təsdiq), ağlamayan uşaq.

5) hərəkət bildirir. [3,5,6,9,10]

**2.** Məktubun yazılma qaydası.

**3.** N.Gəncəvi "Eşqdir mehrabı uca göylərin" şeiri.

**4.** Tərcümə.

## Mövzu № 40

**1. İki nöqtənin işlənmə qaydası (:).**

İki nöqtə yazıda ayırıcı funksiyanı yerinə yetirir, aydınlaşdırma məqsədi ilə işlədilir. Əsasən həmcins üzvlərdə ümumiləşdirici sözlər, aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ümumilik bildirən tərkibdən, vasitəsiz nitqdə müəllif sözlərindən sonra qoyulur. Məsələn: Onun işi asan idi: telefonlara cavab verirdi. Uşaq dedi: - Gəldik! [11]

**2.** İmla "İtirilmiş durğu işarələri.

**3.** Mətn. Ü.Hacıbəyov "Həmsöhbətim".

**4.** Dialoq.

**Mövzu № 41**

**1. İş feilləri.**

İş feilləri əsasən iş bildirir: tikmək, kəsmək, təmizləmək, pozmaq, silmək və s. [3,5,6,9,10]

**2.** Oxu. İ.Əfəndiyevin "Bahar suları" pyesi. Rollar üzrə.

**3.** İfadə. M.İbrahimovun "Qoca meynə" hekayəsi.

**4.** Tərcümə.

**Mövzu № 42**

**1. Məsdər.**

Məsdər həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyır. Məsdər -maq$^2$ (bəzən -ma$^2$) şəkilçisinin köməyi ilə yaranır. Məsələn: oxumaq, yazmaq, baxmaq və s. Məsdər hərəkətin adıdır. Lüğətlərdə bütün feillər məsdər formasında verilir. Məsdər feilin başlanğıc formasına -maq$^2$ şəkilçisi artırmaqla düzəlir. Məsələn: tapmaq, oxumaq və s. [3,5,6,9,10]

**2.** Sinif işi. B.Vahabzadə "Qalx ayağa" şeiri.

**3.** Dinləmə materialı.

**4.** Mətn "Bakı – 2015 Avropa oyunları".

**Mövzu № 43**

**1.** Nitq feilləri.

Nitq feillərinə danışmaq, demək, söyləmək, müraciət etmək, susmaq, dinləmək və s. feillər aid edilir. Əsasən nitqlə bağlı olur. [3,5,6,9,10]

**2.** Şifahi xalq ədəbiyyatı "Bayatılar".

**3.** Mətn. Əli Kamil "Əsgər marşı".

**4.** Krossvord üzrə iş.

**Mövzu № 44**

**1. Nəqli cümlə.**

Nəqli cümlələr bir hadisə, əşya, əlamət və s. haqqında məlumat vermək məqsədilə işlədilir. Məsələn: 1) Azərbaycan mənim Vətənimdir.

Qapı döyüldü. Nəqli cümlələr adi intonasiya ilə tələffüz olunur. Sadəcə olaraq, xəbərdəki əvvəlki sözün üzərində ton bir

qədər yüksəlir. Nəqli cümlələr digərlərindən daha zəngindir. Yazıda nəqli cümlələrin sonunda əsasən nöqtə qoyulur. Bəzən qoşa nöqtə, nöqtəli vergül, üç nöqtə də qoyula bilər. Hiss-həyəcan bildirən nəqli cümlələrin sonunda nida qoyulur. [4,5,6,9,10]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "Yazın son ayı".

**4.** Şəkil üzrə iş.

## Mövzu № 45

**1. Sual cümləsi.**

Sual cümləsi sual məqsədilə işlənən cümlələrə deyilir. Məsələn: Siz kimi gözləyirsiniz? Sual cümlələri məlumat almaq, məlumatı dəqiqləşdirmək məqsədilə verilir. Bəzi sual cümlələri cavab tələb etmir: Adam da belə iş görər? Yazıda sual cümləsindən sonra sual işarəsi qoyulur. Məsələn: Sən kimsən? [4,5,6,9,10]

**2.** Yoxlayıcı tapşırıq. Sual-cavab.

**3.** Mətn "Atəşgah".

**4.** Slayd izləmək. Dialoq.

## Mövzu № 46

**1. Hal-vəziyyət feilləri.**

Hal-vəziyyət feilləri: ağarmaq, bacarmaq, qaralmaq, pərt olmaq, incimək və s. feillərlə ifadə olunur.

**2.** Şifahi xalq ədəbiyyatı "Laylalar".[7]

**3.** Mətn "Od baba".

**4.** Tərcümə.[8]

## Mövzu № 47

**1. Xitab.**

Xitablar cümlədə müraciət olunanı bildirir. Məsələn: Ay qız, bura gəl. Xitablar cümlə üzvləri ilə məna əlaqəsinə görə də, qrammatik əlaqəyə görə də bağlanmır, heç vaxt cümlə üzvü olmur. Xitablar isimlər və isimləşmiş sözlərlə ifadə olunur. Məsələn: Oğlan, kimi gözləyirsən? [4,5,6,9,10]

**2.** Atalar sözü və məsəllər.

**3.** Mətn. "Azərbaycan Milli Tarix muzeyi".

**4.** Dialoq.

### Mövzu № 48

**1.** Məsdərin ismə aid xüsusiyyətləri.

Məsdərin ismə aid xüsusiyyətləri:

1) isim kimi hallanır və mənsubiyyətə görə dəyişir. 2) İsimlər kimi nə? sualına cavab verir. Məsələn: aparmaq, tapmaq və s. 3) III şəxsdə xəbər şəkilçisi (-dır$^4$) qəbul edir və cümlədə ismi xəbər olur. Məsələn: Arzum oxumaqdır.

4) cümlənin mübtədası, tamamlığı, zərfliyi və ismi xəbəri ola bilir. [3,5,6,9,10]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "Əkinçi" qəzeti haqqında.

**4.** Tərcümə.

### Mövzu № 49

**1.** Mötərizənin işlənmə qaydası.

Mötərizənin işlənmə qaydası. Mötərizələr fərqləndirici xüsusiyyətə malikdir, bir qayda olaraq qoşa işlənir. Bu durğu işarəsi müəyyən söz, ifadə və cümlədən əvvəl açılır, sonra isə bağlanır. Əlavə cümlələr, sitatın götürüldüyü mənbə, müəllifin adı mötərizəyə alınır. Bundan başqa, cümlə içərisində müəyyən şəxsin anadan olduğu və vəfat etdiyi tarix, dram əsərlərində obrazların davranışı və nitqi ilə bağlı izahlar mötərizəyə alınır. [11]

**2.** Mətn "Xocalı soyqırımı".

**3.** Slayd izləmək "Xocalı qətliyamı".

**4.** Z.Yaqub "Layla, Xocalım, Layla".

### Mövzu № 50

**1.** I yarım ildə keçirilən dərslərin təkrarı.

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Test üzrə iş.

**4.** Tərcümə. [8]

## Mövzu № 51

**1. Feili bağlama. Feili bağlamanın feilə aid xüsusiyyətləri.**

Feili bağlamanın feilə aid xüsusiyyəti. Şəxs və kəmiyyət bildirməyən və nitqdə başqa feilə aid olub ifadə etdiyi hərəkəti izah edən feillərə feili bağlama deyilir. Məsələn: O, dəftərə baxaraq yazırdı. O, dəftərə baxıb yazırdı (baxaraq və baxıb sözləri) yazırdı feilini tərz etibarilə izah etdiyi və ona bağlandığı üçün feili bağlamadır.

Feili bağlama feili sifət və məsdər kimi iki xüsusiyyətə malikdir: feilə aid xüsusiyyətlər, zərfə aid xüsusiyyətlər.

Feilə aid xüsusiyyətlər: 1) Hərəkət bildirir.

2) Təsirli və təsirsiz olur. Yazıb – təsirli, baxaraq – təsirsiz. 3) Növ şəkilçiləri ilə işlənir: yazıb, yazılıb, yazdırıb və s. 4) Təsdiq və inkarda olur: yazıb, yazılmayıb. 5) Ətrafına söz toplaya bilir: Biz kəndə çatanda.[3,5,6,9,10,11]

**2.** İmla "Məktəbin bağında".

**3.** Məmməd Rahim "Bahar gəlsin" şeiri əzbər.

**4.** Tərcümə.

## Mövzu № 52

**1. Məsdər. Feili sifət. Feili bağlama. Oxşar və fərqli xüsusiyyətləri (Venn diaqram üzrə).**

Feili bağlama, feili sifət və məsdər iki xüsusiyyətə malikdir. Hər üçü feilin xüsusiyyətlərini daşıyır. [3,5,6,9,10,11]

**2.** Mətn "Novruz bayramı".

**3.** "Novruz" mövzusunda slayd izləmək.

**4.** Dialoq.

## Mövzu № 53

**1. Feili bağlamanın zərfə aid xüsusiyyətləri.**

Şəxs və kəmiyyət bildirməyən və nitqdə başqa feilə aid olub onun ifadə etdiyi hərəkəti izah edən feillərə feili bağlama deyilir.

Feili bağlama da feili sifət və məsdər kimi iki xüsusiyyətə malikdir: feilə aid xüsusiyyətlər, zərfə aid xüsusiyyətlər.

Zərfə aid xüsusiyyətlər:

1) Hərəkətin tərzini, zamanını və səbəbini bildirir. -ıb$^4$, -yub$^4$, -araq$^2$, -madan$^2$. Məsələn: yazıb, durub, yazmadan, baxaraq, -anda$^2$, -dıqda$^4$, -arkən$^2$, -dıqca$^4$, -inca$^2$, -ır$^2$, -maz.

2) Zərfin sualına cavab verir: necə? nə zaman? nə vaxt? və s.

3) Cümlədə zərflik olur.[3,5,6,9,10,11]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Mətn "Novruz adətləri".

**4.** Dialoq "Kitab mağazasında".

## Mövzu № 54

**1.** Zərf və feili bağlama üçün ortaq və fərqli əlamətləri. Venn diaqramı.

Ortaq xüsusiyyətlər

Zərf:

- feilə aid olur;
- necə? nə cür? nə zaman? nə tərzdə? suallarına cavab verir;
- cümlədə zərflik olur.

Feili bağlama:

- hərəkətin tərzini, zamanını bildirir;
- zərfin sualın cavab verir;
- əlaqəyə girdiyi sözlə cümlənin zərfliyi olur;
- özündən sonra gələn feilə aid olur. [3,5,6,9,10,11]

**2.** Mətn. Bunları bilmək maraqlıdı. "Bankların yaranması haqqında".

**3.** Şəkil üzrə iş.

**4.** Dialoq.

## Mövzu № 55

**1.** Feilin arzu şəkli.

Feilin arzu şəklində hərəkətin icrası arzu olunur, -a$^2$ şəkilçisi ilə düzəlir. Arzu şəklində çox vaxt gərək, kaş sözləri işlənir. Gərək al+a+m, kaş al+a, gərək gəl+ə+sən və s. Arzu şəkli şəxslərə görə dəyişir. Məsələn: gərək işləyəm, gərək işləyək, gərək işləyəsən, gərək işləyəsiniz, gərək işləyə, gərək işləyələr.

Arzu şəkli zamanlar üzrə dəyişmir. [3,5,6,9,10,11]

**2.** Dinləmə materialı əsasında ifadə.

**3.** Şeir. S.Vurğun "Şair nə tez qocaldın sən" əzbər.
**4.** Tərcümə.

## Mövzu № 56

**1.** Yoxlayıcı tapşırıqlar.
**2.** Sual-cavab.
**3.** Mətn "Nar bayramı".
**4.** Dialoq.

## Mövzu № 57

**1. Feilin vacib şəkli.**

Feilin vacib şəkli hərəkətin icrasının zəruriliyini bildirir. -malı, -məli şəkilçisi vasitəsi ilə düzəlir. Məsələn: almalı, yazmalı, bilməli və s. Feilin vacib şəkli şəxsə və kəmiyyətə görə dəyişir, zamana görə dəyişmir.

Tək:

I yazmalıyam; II yazmalısan; III yazmalıdır.

Cəm:

I yazmalıyıq; II yazmalısınız; III yazmalıdırlar. [3,5,6,6,9,10,11]

**2.** İmla "Göygöl".
**3.** Süleyman Rüstəm "Müəllim" şeiri.
**4.** Dinləmə materialı.

## Mövzu № 58

**1.** Yoxlayıcı tapşırıqlar.
**2.** Mətn "Qız qalası".
**3.** Slayd izləmək.
**4.** Dialoq.

## Mövzu № 59

**1. Zərf haqqında məlumat.**

Zərf hərəkəti müxtəlif cəhətlərdən izah edən nitq hissəsidir. Zərf cümlədə, əsasən feilə aid olaraq, onun tərzini, zamanını, yerini və miqdarını bildirir. Məs: yaxşı danışır, çox oxuyanda, yuxarı getmək, dünən gələn və s. Zərflər necə? nə cür? nə zaman? haçan?

nə vaxt? hara? nə qədər? və s. Zərflər həm təsriflənən, həm də təsriflənməyən feillərə (məsdər, feili sifət, feili bağlama) aid olur. Dünən gəlirdi, indi getməliyəm kimi cümlələrdə zərf təsriflənən feillərə aiddir. Dəfələrlə demək, asta-asta gələndə, cəsarətlə danışan birləşmələrində zərf təsriflənməyən feillərə aiddir. [3,5,6,8,9,10,11]

**2.** H.Cavid "Qız məktəbində" şeiri.
**3.** Bunları bilmək maraqlıdır. Psixologiya haqqında.
**4.** Dinləmə materialı.

### Mövzu № 60

**1.** Qrammatikaya aid yoxlayıcı tapşırıqlar.
**2.** Sinif işi. İlyas Əfəndiyev "Daş hasar".
**3.** Mətn "Qəbələ rayonu".
**4.** Tərcümə

### Mövzu № 61

**1. Feilin lazım şəkli.**

İcra ediləcək işin lazım olduğunu bildirən feil şəklinə feilin lazım şəkli deyilir. Lazım şəkli feilə -ası (yası)$^2$ şəkilçisi artırmaqla düzələri. Məs: tikiləsi, asılası və s. Lazım şəkli zamanlara görə dəyişə bilmir, amma onun məzmumunda gələcək zaman anlayışı olur. Şəxs sonluqları qəbul edərək şəxsə görə dəyişir:

| | |
|---|---|
| Mən oxu-yası-yam | Biz oxu-yası-yıq |
| Sən oxu-yası-san | Siz oxu-yası-sınız |
| O oxu-yası-dır | Onlar oxu-yası-dırlar [3,5,6,9,10,11] |

**2.** İmla "Meşədə".
**3.** Bayatılar.
**4.** Slayd izləmək.

### Mövzu № 62

**1.** Yoxlayıcı tapşırıqlar.
**2.** Mətn "Damcılı bulaq".
**3.** Tərcümə.
**4.** Dialoq.

## Mövzu № 63

**1. Feilin bacarıq şəkli.**

Feilin baxarıq şəkli köməkçi feil kimi işlənəndə bacarıq tərzinin yaradır. İş, hal-vəziyyət və hərəkəti icra edənin imkanını nəzərə çatdırır. Bacarıq formasının əsas xüsusiyyətləri:

a) əsas feilə -a, -ə artırandan sonra "bilmək" feili əlavə edilir: danışa bilirəm.

b) quruluşuna görə feilin mürəkkəb feil hesab olunur.

c) bu forma feilin digər şəkillərilə də işlənir: əmr (yaza bilsin), xəbər (yaza bilir), arzu (kaş yaza biləm), şərt (yaza bilsəm) və s. (3,6,10,11)

**2.** Mətn "Danışma bacarığı".

**3.** Şəkil üzrə iş.

**4.** Dialoq.

## Mövzu № 64

**1.** Maraqlı məlumatlar "Bilirsinizmi?".

**2.** Mətn "Neft daşları".

**3.** Slayd izləmək.

**4.** İfadəli oxu. Şeir. "Neftçiyik biz".

## Mövzu № 65

**1. Sifətin dərəcələri.**

Sifətin özünəməxsus xüsusiyyətlərindən biri də onun dərəcə bildirməsidir. Əşyaların əlamət və keyfiyyəti azlığı və çoxluğu ilə bir-birindən fərqlənir. Buna görə də əşyaların əlamət keyfiyyəti nisbi olaraq üç dərəcə üzrə müəyyənləşdirilir.

Azaltma dərəcəsi – göytəhər

Adi dərəcə – göy

Çoxaltma dərəcəsi – gömgöy.

Sifətin adi dərəcəsi əşyanın keyfiyyət və əlamətinin normada olduğunu bildirir. Azaltma və çoxaltma dərəcələri adi dərəcə əsasında formalaşır: sarı, yaşıl, qırmızı, kiçik. Adi dərəcənin xüsusi şəkilçisi yoxdur.

Sifətin azaltma dərəcəsi əlamət keyfiyyətinin adi dərəcədən, yəni normadan az olduğunu bildirir. Azaltma dərəcəsi iki üsulla

düzəlir:

1. Morfoloji üsulla:
- sov: uzunsov, dəlisov
- şın: qaraşın, sarışın
- ımsov⁴: göyümsov
- ımtıl⁴: sarımtıl
- ımtıraq⁴: sarımtıraq
- raq: gödərək

2. Sintaktik üsulla:
Bu üsulla yaranan sifətlərə başqa bir söz artırılır:
- təhər: qırmızıtəhər, qocatəhər və s.
- kəm: kəmşirin, kəmturş və s.
- ala: ala-çiy, ala-yarımçıq və s.
- açıq: açıq-sarı, açıq-qara və s.
- zil: zil qara, zil sarı və s.
- tünd: tünd yaşıl, tünd qırmızı və s.[3,5,6,9,10,11]

**2.** Yoxlayıcı tapşırıqlar.
**3.** C.Cabbarlı. Şeir "Tellər oynadı".
**4.** Dialoq.

### Mövzu № 66

**1.** Mətn. Səməd Vurğun "Vaqif" dramı (Vaqiflə Qacarın deyişməsi).
**2.** Slayd izləmək.
**3.** Tapmacalar.[7]
**4.** İfadə yazı.

### Mövzu № 67

**1. Tərzi hərəkət və zaman zərfi.**

Hərəkəti izah etmə cəhətindən asılı olaraq zərflər müxtəlif məna növlərinə bölünür.

Tərzi hərəkət zərfləri hərəkətin necə, hansı tərzdə yerinə yetirildiyini, icra olunduğunu bildirir, necə? nə cür? suallarına cavab olur. Məsələn: O sənə təəccüblə baxırdı. Akif inadla susurdu. Tərzi hərəkət zərfləri hərəkətin keyfiyyətini də bildirə bilir. Məsələn: gözəl danışmaq, yaxşı bilmək və s.

Zaman zərfi hərəkətin icra olunduğu zamanı bildirir, nə zaman? haçan? suallarına cavab verir. Məsələn: Mən hələ də kitabı ala bilməmişəm. Yenə göy üzünü duman bürüyüb. [3,5,6,9,10]

**2.** Mətn "Burla Xatunun dastanı".

**3.** İfadə yazı.

**4.** Tərcümə [8]

## Mövzu № 68

**1.** Azərbaycan Respublikasının Konstitusiyası.

**2.** Hikmət Ziya "Qarabağ" şeiri.

**3.** Yoxlayıcı tapşırıqlar.

**4.** Dialoq.

## Mövzu № 69

**1. Köməkçi nitq hissələri "Qoşma".**

Köməkçi nitq hissələrinin ayrılıqda leksik mənaları olmur, suala cavab vermir, cümlə üzvü olmurlar, əsasən, leksik şəkilçi qəbul edib dəyişmir, söz yaradıcılığında iştirak etmir, yəni onlardan yeni söz yaratmaq olmur.

Azərbaycan dilində beş köməkçi nitq hissəsi var və onlar yalnız qrammatik mənaya malikdirlər. Qoşma, bağlayıcı, ədat, modal sözlər və nida köməkçi nitq hissələridir.

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq hallarında olan sözlərə qoşularaq müəyyən məna çaları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir.

1. Adlıq və yiyəlik halla işlənən qoşmalar: üçün, ilə (-la$^2$), qədər, kimi, tək, -ca$^2$, haqqında, haqda, barədə, barəsində, üzrə (üzrə yalnız adlıq halla işlənir) və s.

2. Yönlük halla işlənən qoşmalar: qədər, kimi, -dək, tərəf, sarı, doğru, qarşı, -can$^2$, görə, aid, dair, əsasən, xas, məxsus və s.

3. Çıxışlıq halla işlənən qoşmalar: əvvəl, qabaq, sonra, bəri, başqa, savayı, qeyri, ayrı, ötrü, özgə, əlavə, sarı və s. [3,5,6,9,10,11]

**2.** Mətn "Aslan və dovşan".

**3.** Mətn əsasında ifadə yazı.

**4.** Dinləmə materialı

## Mövzu № 70

**1. Nida.**

Nida danışanın hiss və həyəcanını ifadə edən köməkçi nitq hissəsinə deyilir. Nidalar insanın müxtəlif hisslərinin, hadisələrə emosional münasibətinin ifadəsidir.

Nidaların 5 məna növü var:

1. Sevinc, heyranlıq bildirənlər: bəh-bəh, of, ura, paho, ox-qay, ay can-ay can. Məs: Paho! Ay salam, xoş gördük.

2. Kədər, narahatlıq, qorxu bildirənlər: ay aman, ah, ox, vay-vay, uf, ay dad və s. Məs: Vay-vay, bu nə işdi başıma gəlir?

3. Çağırış bildirənlər: ey, ay, ya, hey, a, ehey. Məs: A bala bir bura gəl.

4. Nifrət, istehza bildirənlər: tfu, xa-xa-xa, xox və s. Məs: Xox, qorxdum səndən.

5. Qəm, kədər bildirənlər: of, ah, ox, oy, eh və s. Məs: Ah, keçdi artıq o gündən.[3,5,6,9,10]

**2.** Mətn "Azərbaycan çalğı alətlərinin təsnifatı".

**3.** Slayd izləmək.

**4.** Dialoq.

## Mövzu № 71

**1. Bağlayıcılar (tabelilik və tabesizlik).**

Köməkçi nitq hissəsi olan bağlayıcı sözlər, cümlələr, abzaslar və mətnlər arasında əlaqə yaradır, onları qrammatik cəhətdən bir-birinə bağlayır. Məsələn: Mən oxuyurdum, o isə şəhərin küçələrini gəzirdi. Sintaktik funksiyasına görə (cümlədəki vəzifəsinə görə) bağlayıcılar iki yerə bölünür:

1) tabesizlik bağlayıcıları, 2) tabelilik bağlayıcıları.

Tabesizlik bağlayıcıların qrammatik məna növləri

1. Birləşdirici bağlayıcıları: və, ilə (-la$^2$). Həsən və Akif kəndə gedəcəklər.

2. Qarşılaşdırma bağlayıcıları: amma, ancaq, lakin, halbuki, isə, fəqət. Mən danışırdım, o isə qulaq asırdı.

3. Bölüşdürmə: ya, ya da, ya da ki, və ya, və yaxud, yaxud da, gah, gah da, istər, istərsə də. Gah danışır, gah da gülür.

4. İştirak bağlayıcıları: həm, həm də, həm də ki, o cümlədən, nəinki, hətta, habelə, həmçinin,

-da[2]. Hamı, hətta Cahan xala da məclisə gəlmişdi.

5. İnkarlıq bağlayıcıları: nə, nə də, nə də ki. Nə yardan doyur, nə əldən doyur.

6. Aydınlaşdırma bağlayıcıları: yəni, məsələn. Burda xeyli ziyalı, məsələn: H.Zərdabi, M.F.Axundzadə, N.Vəzirov cəmləşmişdi.

Tabelilik bağlayıcılarının məna növləri isə bunlardır:

1. Aydınlaşdırma bağlayıcıları: ki, belə ki. Məs: Evə gəlib çatmışdım ki, işıqlar söndü.

2. Səbəb bağlayıcıları: çünki, ona görə ki, buna görə də, onun üçün ki, ondan ötrü ki və s. Məs: Ondan ötrü getdim ki, bunları gözləmirdim.

3. Güzəşt bağlayıcıları: hərçənd, hərçənd ki və s. Məs: Hərçənd, dünyanı qadınlar idarə edirlər.

4. Şərt bağlayıcıları: əgər, hərgah, madam ki, indi ki, yoxsa, bir halda ki və s. Məs: Madam ki, gəlmir, demək bizi saymır.

Və, ilə bağlayıcıları vergüllə işlədilmir.[3,5,6,9,10]

**2.** İfadə yazı "Dostlar səfərdə".

**3.** Rəsul Rza "Çinar" şeiri.

**4.** Dinləmə.

## Mövzu № 72

**1.** İmla. İlyas Əfəndiyev "Yaylaq qonşumuz".

**2.** Mətn "Ad gününün tarixçəsi".

**3.** Krossvord üzrə iş.

**4.** Dialoq.

## Mövzu № 73

**1. Ədat (mənaca növləri).**

Ədatların mənaca 7 növü var.

1. Qüvvətləndirici ədatlar: ən, lap, axı, artıq,

-ca[2], da, də, ha, düz, bir, ki, necə, nə, belə, olduqca, hələ. Məs: Lap başımı itirmişəm.

2. Dəqiqləşdirici ədatlar: elə, məhz, əsl. Məs: Elə mən bunu istəyirdim.

3. Məhdudlaşdırıcı ədatlar: ancaq, təkcə, tək, bircə, yalnız, bir. Məs: Ancaq sən ona kömək edə bilərsən.

4. Sual ədatları: bəs, məyər, bəyəm, yəni, -mı[4], ki. Məs: Yəni sən heç atanı düşünmürsən?

5. Əmr ədatları: di, qoy, bax, gəl, gör, görün, gəlin, gəlsənə, ha, -sana, -sənə, -sanız, -səniz. Məs: Bax gözləsin ha.

6. Arzu ədatları: kaş, gərək, kaş ki, təki, barı, bircə və s. Məs: Təki sən səslə məni.

7. Təsdiq və inkar ədatları: hə, yox, bəli, xeyr, heç, əlsa. Məs: Hə, mən razıyam.[3,5,6,9,10,11]

**2.** Azərbaycan dilində söz ehtiyatını zənginləşdirmək. “Moruq” mətni əsasında. Şaxələnmə.

**3.** Dinləmə materialı.

**4.** Tərcümə “Ögey ana”.

## Mövzu № 74

**1.** Mətn “Heydər Əliyev Fondu”.

**2.** Slayd izləmək.

**3.** İmla “Hökumət evi”.

**4.** Dialoq.

## Mövzu № 75

**1. Modal sözlər.**

Modal sözlər danışanın ifadə etdiyi fikrə münasibət bildirən köməkçi nitq hissəsidir. Modal sözlərin mənca 7 növü var.

1. Təsdiq (yəqinlik) bildirənlər: əlbəttə, şəksiz, şübhəsiz, doğrusu, doğrudur, doğrudan da, həqiqətən, düzü, sözsüz və s. Məs: Şübhəsiz, əmək insan xarakterini müəyyən edə bilər.

2. Güman və şübhə bildirənlər: bəlkə (də), güman (ki), ehtimal ki, yəqin (ki), deyəsən, görünür, olsun ki, olmaya və s. Məs: Olmaya sən bizsiz getmək fikrindəsən?

3. Nəticə (ümumiləşdirmə) bildirənlər: axır ki, deməli, ümumiyyətlə, beləliklə, xülasə, nəhayət, bir sözlə, tutaq ki, demək, nə isə, yaxşı, müxtəsər və s. Məs: Yaxşı, indi biz hara gedirik?

4. Sıra və ardıcıllıq bildirənlər: əvvala, birinicis, ikincisi və s. Məs: Birincisi mən özüm istəmirdim, ikincisi, bunun sənə aidiyyatı yoxdur.

5. Fikrin mənbəyini bildirənlər: məncə, səncə, fikrimizcə, bizcə, zənnimizcə, mənə görə və s. Məs: Qiymətli əsərlərin itkin düşməsi, məncə sizin kimi böyük rəssamı daha çox maraqlandırmalıdırlar.

6. Təəssüf bildirənlər: təəssüf ki, heyif ki, əfsus ki və s. Məs: Heyif ki, biz onu vaxtında tanıya bilmədik.

7. Bənzətmə (və müqayisə) bildirənlər: sanki, elə bil, elə bil ki və s. Məs: Sanki onun üstünə bir qazan isti su tökdülər. [3,5,6,9,10,11]

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** "Nəbi və Tahir" mətni əsasında ifadə.

**4.** Sinifdən xaric oxu

## Mövzu № 76

**1. Sintaqmlar**

Cümlələrdə söz birləşmələri ilə pauzanın düzgün ifadə olunması: Qoca = palıdın altında oturdu. Qoca palıdın = altında oturdu. [6]

**2.** Mətn "İlk dəfə Azərbaycanda".

**3.** Dinləmə materialı".

**4.** Dialoq.

## Mövzu № 77

**1. Miqdar zərfləri.**

Miqdar zərfləri hərəkətin miqdarını və ya dərəcəsini bildirir. Nə qədər? sualına cavab olur: az, çox, azacıq, bir-iki, birə-beş, qismən, dəfələrlə, bütünlüklə, təkrarən, az-az, az-çox, beş-beş, qat-qat və s. sözlər miqdar zərfləridir.

Sadə miqdar zərfləri: az, çox, xeyli, qismən və s.

Düzəltmə miqdar zərfləri: tamamilə, dəfələrlə, bütünlüklə, təkrarən, azacıq və s.

Mürəkkəb miqdar zərfləri: çox-çox, iki-iki, az-az, az-çox, az-maz, birə-beş, azdan-çoxdan, qat-qat və s. [3,5,6,9,10]

**2.** M.Ə.Sabir "Millət necə tarac olur olsun, nə işim var" şeiri.

**3.** İmla "Koroğlu" dastanı.

**4.** Tərcümə.

## Mövzu № 78

**1.** Mətn. "Füsünkar təbiət abidəsi – Batabat".

**2.** Yoxlayıcı tapşırıqlar.

**3.** Dialoq.

**4.** Dinləmə mətni.

## Mövzu № 79

**1. Yer zərfi.**

Yer zərfi hərəkətin icra olunduğu (yaxud icra olunmadığı) yeri bildirir. Ağsaqqal bir adam içəridə oturmuşdu.

Sadə yer zərfləri: aşağı, içəri, yuxarı, irəli, geri, ora, bura, yaxın, uzaq, sağ, sol, arxa, dal, kənar, qıraq, yan, eşik, bəri və s.

Düzəltmə yer zərfləri: ortalıqda, aralıqda və s.

Mürəkkəb yer zərfləri: ora-bura, yan-yörə, dala-qabağa, o tərəf-bu tərəf, sağa-sola, üzüyuxarı, üzüaşağı və s.

İrəli, geri, içəri, yuxarı, aşağı, bəri və s. sözlər yönlük, yerlik, çıxışlıq hal şəkilçiləri qəbul etdikdə də yer zərfləri olur: irəliyə, yuxarıda, bəridən, geridən və s. [3,5,6,9,10,11]

**2.** Dinləmə. Dinləmə mətni əsasında ifadə.

**3.** M.Şəhriyar "Azərbaycan" şeiri.

**4.** Tərcümə.

## Mövzu № 80

**1.** Leksika. Yoxlayıcı tapşırıqlar.

Söz dilin əsas vahididir. Dildəki sözlərin hamısı birlikdə dilin lüğət tərkibini, yəni leksikanı təşkil edir. Dilin lüğət tərkibini öyrənən elm leksikologiya adlanır. Leksika dilin lüğət tərkibi, dildəki bütün sözlərin cəmi mənasında başa düşülür. Sözlər əşyaları, hərəkəti, əlaməti, miqdarı və s. ifadə etməyə xidmət göstərir. Hər bir sözün birbaşa ifadə etdiyi mənaya onun leksik mənası deyilir. Əsas nitq hissələrini təşkil edən bütün sözlər leksik və qrammatik

mənaya malik olur. Amma köməkçi nitq hissələrinin yalnız qrammatik mənası olur. [3,5,6,10]

**2.** İmla "Şah İsmayıl Xətai".
**3.** Mətn "Azərbaycan".
**4.** Dialoq.

## Mövzu № 81

**1. Sintaksis, söz birləşmələri.**

Sintaksis qrammatikanın bir şöbəsi olub söz birləşmələrini və cümlələri öyrənir. Söz birləşmələri iki və daha artıq müstəqil sözün və qrammatik cəhətdən birləşməsindən irəli gəlir: ana ürəyi, vətən sevgisi, yurdu qorumaq, düşmənlə döyüşəndə.

Söz birləşməsi ən azı iki müstəqil mənalı sözün birləşməsindən əmələ gəlir. Buna görə də müstəqil sözlə köməkçi sözün birləşməsi söz birləşməsi sayılmır: bizə tərəf, sənin üçün.

Söz birləşmələri quruluşca iki cür olur: sadə və mürəkkəb. Sadə söz birləşmələri iki müstəqil mənalı sözdən (mənim arzum), mürəkkəb söz birləşmələri üç və daha artıq müstəqil mənalı sözdən ibarət olur (Türkün qədim torpağı). [4,5,6,9,10]

**2.** Şəkil üzrə iş.
**3.** Yunis Əmrə "Salam olsun" şeiri.
**4.** Sinifdən xaric oxu.

## Mövzu № 82

**1.** Məntiqi suallar. İntellektual oyun.
**2.** İmla "Nizami Gəncəvi".
**3.** Mətn "BDU-nun beynəlxalq aləmdə yüksəlişi.
**4.** Dialoq.

## Mövzu № 83

**1. İsmi birləşmələr.**

Əsas tərəfi adlarla (Adlar dedikdə isim, sifət, say, əvəzlik və bəzi zərflər nəzərdə tutulur) ifadə olunan birləşmələrə ismi birləşmələr deyilir: yeməli meyvə, insanın yaxşısı, kitabların üçü, uşaqların hamısı, işin sonrası və s. [4,5,6,10]

**2.** İfadə yazı "Bakı funklyoru".

**3.** Sinifdən xaric oxu.
**4.** Dialoq.

## Mövzu № 84

**1.** Mətn “Azərbaycan Respublikasının Dövlət Bayrağı”.
**2.** Yoxlayıcı tapşırıqlar.
**3.** Sual cümləsi.
**4.** Dialoq.

## Mövzu № 85

**1. Cümlənin baş üzvləri. Mübtəda, xəbər.**

Cümlə üzvləri cümlənin təşkilindəki roluna görə iki yerə bölünür:

1. Baş üzvlər: mübtəda, xəbər.

Mübtəda cümlənin baş üzvü olub, hərəkət və əlaməti xəbərlə müəyyənləşən şəxsi, əşyanı bildirir. Mübtəda kim? nə? hara? Suallarından birinə cavab verir. Mübtəda ismin adlıq halında olan sözlər və söz birləşmələri ilə ifadə olunur. Mübtəda cümlənin ən müstəqil üzvüdür, heç vaxt heç bir cümlə üzvündən asılı olmur. Mübtəda təyinlə yanaşma, xəbərlə isə uzlaşma əlaqəsinə girir, hər iki halda əsas tərəf olur.

Xəbər cümlənin baş üzvü olub, cümlədə haqqında danışılanın – mübtədanın hərəkət və ya əlamətini bildirir. Qoşun addım-addım irəliləyirdi. Mənim oğlum igiddir. Birinci cümlədə “irəliləyirdi” əşyanın hərəkətini bildirdiyi halda, ikinci cümlədə əşyanın daşıdığı əlaməti bildirir. Xəbər nə edir? (feilin bütün şəkil və zamanlarında) kimdir? necədir? haradadır? və s. suallardan birinə cavab verir. [4,5,6,10,11]

**2.** İfadə yazı “Mərdəkan dendarisi”.
**3.** Cütlərlə iş
**4.** Tərcümə.

## Mövzu № 86

**1.** Mətn “Qobustan”.
**2.** Yoxlayıcı tapşırıqlar.
**3.** C.Cabbarlı “Həyat söylə sən kiminsən” şeiri.

**4.** Dialoq.

## Mövzu № 87

**1. Feili birləşmələr.**

Feili birləşmələr əsas tərəfi feilin təsriflənməyən formaları (məsdər, feili sifət, feili bağlama) ilə ifadə olunan birləşmələrə feili birləşmələr deyilir: dərs oxumaq, dünən gələn, onu aparanda.

Feili birləşmələr quruluşca sadə və mürəkkəb olurlar. Sadə - vətəni qorumaq, mürəkkəb – vətən yolunda ölmək. Feili birləşmələri tərkibi feillərlə qarışdırmaq olmaz. Belə ki, həm frazeoloji birləşmələr, həm də ol, el, et, bil, qıl tipli köməkçi feillərin köməyi ilə yaranan tərkibi feillər sərbəst söz birləşməsi hesab edilmir. Məs: oxuya bilmək, qulaq asmaq, adam olmaq tipli sözlər bir müstəqil məna daşıyır. Feili birləşmələrin hər iki tərəfi müstəqil mənaya malik olmalıdır. Feili birləşmələrə cümlə təhlili zamanı tərkibləri: məsdər tərkibi, feili sifət tərkibi, feili bağlama tərkibi. "Tərkib" sözü ilə "birləşmə" sözü sinonim ola bilər. [4,5,6,9,10]

**2.** Xalq mahnısı "Pəncərədən daş gəlir".

**3.** Sinifdən xaric oxu.

**4.** Tərcümə.

## Mövzu № 88

**1. Həmcins üzvlər.**

Eyni üzvlə bağlı olub, eyni suala cavab verən bərabər hüquqlu üzvlərə həmcins üzvlər deyilir. Cümlənin müxtəlif üzvləri arasında (xəbərlə, mübtəda, tamamlıqla xəbər, zərfliklə xəbər, təyinlə təyinlərin arasında) tabelilik əlaqələri olur. Cümlənin elə üzvləri var ki, onlardan biri digərinə tabe olmur, biri digərini izah etmir, aydınlaşdırmır. Bu cür üzvlər arasındakı əlaqə tabesizlik əlaqəsi, bərabərhüquqlu əlaqədir. Məs: Sevinc, Lalə və Reyhan çox yaxın rəfiqə idilər: Ağ, qırmızı, sarı güllər adamı heyran edirdi – cümlələrindən birincisində mübtədalar, ikinci cümlədə isə təyinlər həmcins üzvlərdir. Bütün cümlə üzvləri həmcins ola bilər. [4,5,6,9,10]

**2.** Mətn. C.Cabbarlı "Dilarə".

**3.** Dinləmə materialı əsasında ifadə.

**4.** Yoxlayıcı tapşırıqlar.

**Mövzu № 89**

**1. Cümlənin II dərəcəli üzvləri.**

İkinci dərəcəli üzvlər – təyin, tamamlıq, zərflik. Cümlə üzvlərinin təyin, mübtəda, tamamlıq, zərflik, ismi xəbər və təyinin özü ilə, tamamlıq, zərflik xəbərlə, xəbər isə təyin kimi bütün cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.

Tamamlıq cümlənin ikinci dərəcəli üzvü olub, hərəkət və əlamətin obyektini bildirir. İsmin adlıq və yiyəlik hallarından başqa, qalan hallarda əşya, obyekt bildirən sözlər və birləşmələr cümlədə tamamlıq vəzifəsində işlənir. Tamamlıqlar quruluşca sadə və mürəkkəb olur. Sənin üçün su alınmı? Vətən məni çağırır. Tamamlıqda vasitəli və vasitəsiz olurş [4,5,6,9,10]

**2.** Mətn "İrqlər".

**3.** Yoxlayıcı imla.

**4.** Testlər üzrə iş

**Mövzu № 90**

**1.** İxtisaslar.

**2.** Mətn "Azərbaycanın milli şirniyyatları".

**3.** Yusif Diriliş. "Bayramların sultanı" şeir.

**4.** Dialoq.

**Mövzu № 91**

**1. Zərflərin mənaca növləri.**

Hərəkəti izah etmə cəhətindən asılı olaraq zərflər müxtəlif məna növlərinə bölünür.

1. Tərzi-hərəkət zərfliyi
2. Zaman zərfliyi
3. Yer zərfliyi
4. Kəmiyyət zərfliyi
5. Səbəb zərfliyi
6. Məqsəd zərfliyi

Tərzi-hərəkət zərfliyi işin, hərəkətin icra tərzini bildirir. Necə? nə cür? nə tərzdə? nə vəziyyətdə? suallarına cavab verir.

Zaman zərfi işin, hərəkətin, hadisənin zamanını bildirir. Nə vaxt? nə zaman? haçan? nə vaxtadək? nə vaxta kimi? suallarına cavab verir.

Yer zərfliyi işin, hərəkətin, hadisənin yerini bildirir. Hara? haraya? harada? haradan? suallarına cavab verir.

Kəmiyyət zərfliyi işin, hərəkətin nə qədər, hansı kəmiyyətdə icra olunduğunu bildirir və nə qədər? sualına cavab verir. Zərfliyin bu növü bəzən hərəkət və əlamətin dərəcəsini də bildirir, nə dərəcə? nə dərəcədə? suallarına cavab verir.

Səbəb zərfliyi hərəkətin və ya əlamətin səbəbini bildirir. Niyə? nə üçün? nə səbəbə? nədən ötrü? nəyə görə? suallarına cavab verir. Cümlədəki səbəb feili xəbərdəki zamandan əvvəl baş verir. Üşüdüyü üçün evə getdi. Bu cümlədəki xəbər keçmiş zamandadır. Xəbər hərəkətin başvermə səbəbi ondan əvvəl olub, belə ki, səbəb olmalıdır ki, nəticə görünsün. Evə getməsinin səbəbi üşüməyidir.

Məqsəd zərfliyi işin, hərəkətin məqsədini bildirir. Niyə? nə üçün? nədən ötrü? nə məqsədlə? suallarına cavab verir. Məqsəd cümlədəki xəbərin zamanından sonra baş verir: oxumaq üçün gedirəm. Belə ki, cümlədən də göründüyü kimi, məqsəddə olan oxumaq gedəndən sonra baş tutacaq. [4,5,6,9,10,11]

**2.** İnşa “Ana” haqqında.

**3.** Testlər üzrə iş.

**4.** Yoxlayıcı tapşırıqlar.

## Mövzu № 92

**1. Terminlər.** [2]

Termin – terminologiya sahəsi ilə bağlıdır. Termin ümumişlək sözlərə, ümumişlək sözlər də terminlərə çevrilə bilər.

**2.** Mətn “Əfsanələrlə dolu Xınalıq”.

**3.** Mətn əsasında ifadə yazmaq.

**4.** Dialoq.

## Mövzu № 93

**1. Mürəkkəb cümlə.**

Mürəkkəb cümlə iki və daha artıq cümlənin məna və qram-

matik cəhətdən birləşməsinə deyilir. Mürəkkəb cümlə sadə cümlələrin birləşməsindən yaranır. Məs: Yağış yağır, hər tərəf palçıq olur. Mürəkkəb cümlə üçün məna bağlılığı vacib şərtdir. Mürəkkəb cümlə tabeli və tabesiz olur. [4,5,6,9,10,11]

**2.** Rəsmi işgüzar sənədlər. Tərcümeyi-hal. Ərizə.

**3.** Mətn "Qədim Oğuz xalçası".

**4.** Tərcümə.

### Mövzu № 94

**1.** Mətn "Böyük şəxsiyyət – Heydər Əlirza oğlu Əliyev".

**2.** Slayd izləmək.

**3.** Yoxlayıcı tapşırıqlar.

**4.** Krossvord.

### Mövzu № 95

**1. Bağlayıcılı tabesiz mürəkkəb cümlə.**

Bağlayıcılı tabesiz mürəkkəb cümlənin tərəfləri – sadə cümlələr tabesiz bağlayıcıları ilə bağlanır. [4,5,6,9,10,11]

**2.** İmla "Bülbül və qaratikan kolu".

**3.** Təfəkkür feilləri.

**4.** Sinifdən xaric oxu.

### Mövzu № 96

**1. Vasitəsiz və vasitəli nitq.**

Başqasının nitqinin eynilə deyil, dəyişilmiş şəkildə verilməsinə vasitəli nitq deyilir. Bu cür cümlələr müəllifin sözlərindən və özgə nitqinin məzmunundan ibarət olur. Məs: Südabə sevinclə dedi: "Bu mənim üçün dünyanın bütün dövlətindən qiymətlidir".

Vasitəsiz nitqə çevrilərkən "ki" bağlayıcısından istifadə olunur, dırnaqlar və tire atılır. [4,6,9,10,11]

**2.** Mətn "Atayla yaşıd qız".

**3.** Tərcümə.

**4.** Krossvord üzrə iş.

## Mövzu № 97

**1. Sintaktik əlaqələr. Tabesizlik əlaqəsi.**

Söz birləşmələri və cümlələri təşkil edən sözlər arasında iki cür əlaqə olur:

1. Məna əlaqəsi, 2. Sintaktik əlaqə.

Maraqlı kitab birləşməsində həm məna, həm də sintaktik əlaqə var, lakin dəli kitab ifadəsində sintaktik əlaqə olsa da, sözlər mənaca bir-biri ilə əlaqələnmədiyindən birləşmə yaratmır. Böyük qardaşım Ərtoğrul məni həmişə əzizləyir. Böyük + qardaşım, qardaşım + Ərtoğrul, Ərtoğrul + əzizləyir, məni + əzizləyir, həmişə + əzizləyir. Sxemlərdən göründüyü kimi, müxtəlif sözlər bir-biriləri ilə sintaktik əlaqəyə girmişdir.

Tabesizlik əlaqəsində tərəflər bərabərhüquqlu olur. "Selcan və İnci mehriban və səmimi bacıdırlar" cümləsində Selcan və İnci həmcins mübtədaları, mehriban və səmimi həmcins təyinləri biri o birinə tabe olmadan, aydınlaşdırmadan sintaktik əlaqəyə girmişlər. [4,5,6,9,10,11]

**2.** Oxu mətni. "H.Əliyev dövlətçilik və dil haqqında".

**3.** Baba Vəziroğlu. "Sən elə bir zirvəsən" şeiri.

**4.** Dinləmə materialı.

## Mövzu № 98

**1.** Mətn "İrəvan xanlığı".

**2.** İnşa "Qəhrəmanlar ölmür".

**3.** Çətin sözlərin izahı.

**4.** Dialoq.

## Mövzu № 99

**1. Tabelilik əlaqəsi. Uzlaşma.**

Tabelilik əlaqələrində bir tərəf asılı (tabe olan), digər tərəf isə (tabe edən) olur. Yəni əsas sözün tələbi ilə asılı söz əsas sözlə ya uzlaşır (mən gəldim), ya da idarə olunur (onu götür), ya da sadəcə olaraq əsas sözə yanaşır (xoşbəxt insan).

Əsas tərəfin tələbi ilə asılı tərəfin onunla şəxsə və kəmiyyətə görə uyğunlaşmasına uzlaşma əlaqəsi deyilir. Uzlaşma əlaqəsi həm mübtəda ilə xəbər arasında (onlar gəldilər), həm də II və

III növ təyini söz birləşmələrinin tərəfləri arasında (kitab üzü, kitabın üzü) olur. Uzlaşma əlaqəsində əsas söz birinci, asılı söz ikini olur. Bizim ← evimiz. Mübtəda ilə xəbər arasında uzlaşma zamanı mübtəda əsas, xəbər isə asılı tərəf olur. [4,5,6,9,10]

**2.** Mətn "Gülüş günü".

**3.** İfadə yazı.

**4.** Səhvlər üzrə iş.

## Mövzu № 100

**1. Məntiqi vurğu.**

Cümlədə müəyyən sözün başqalarına nisbətən qüvvətli tələffüzünə məntiqi vurğu deyilir. Bəzən biz məqsədimizdən asılı olaraq, cümlədəki sözlərin yerini dəyişirik. Bu zaman lazım olan söz bir qədər yüksək tonla, yəni digər sözlərə nisbətdə qüvvətli deyilir. Bu sözü məntiqi vurğulu söz adlandırırıq.

Yadda saxlamaq lazımdır ki, məntiqi vurğulu söz, adətən xəbərin yanında gəlir. Xəbərin özü də məntiqi vurğu altında deyilə bilər.

1. Mən sabah <u>kəndə</u> gedirəm.
2. Sabah kəndə <u>mən</u> gedirəm.
3. Mən kəndə <u>sabah</u> gedirəm.

Cümlələrdə işarələnmiş sözlər məntiqi vurğulu sözlərdir. Yazılı nitqdə məntiqi vurğu yalnız xəbərin yanında olan söz hesab olunur. [4,6,9,11]

**2.** Mətn "Şuşa şəhərinin tarixi".

**3.** Dialoq.

**4.** Tərcümə.

## Mövzu № 101

**1. "Hərbi and" dörd dildə.**

Mən Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olarkən Vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm. Təntənəli surətdə and içirəm.

Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan

ötrü qanımı və canımı əsirgəməyəcəm. Səmimi, cəsur, intizamlı olacaq, hərbi sirri verməyəcək, hərbi nizamnamələrin tələblərinin yerinə yetirəcək, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağam.

Hərb işini vicdanla öyrənəcək, əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirəcək, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olacağam.

Andımı pozsam, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazıram.

**2.** Bunları bilirsinizmi?
**3.** M.Müşfiq "Yenə o bağ olaydı" şeiri.
**4.** Testlər üzrə iş.

## Mövzu № 102

**1. Esse "İşğaldan azad olmuş Qarabağ torpaqları".**

| | |
|---|---|
| Aktiv müdafiə sistemi | Döyüş bayrağı |
| Azad (komanda) | Düzlən |
| Basqın | Gözətçi qülləsi |
| Batareya (silah) | Hərbi kəşfiyyat |
| Bayraqdar | Hərbi salam |
| Divizion | Hərbi toqquşma |
| Döyüşdə yaralanmaq | Hücum. |
| | Hücum silahı və s. |

**2.** Mətn "Abşeron yarımadası".
**3.** Tərcümə "Hərbi terminlər".
**4.** Dinləmə.

## Mövzu № 103

**1. Müxtəsər və geniş cümlələr.**

Ancaq baş üzvlərdən ibarət olan cümlələrə müxtəsər cümlələr deyilir. Tələbə danışır. Geniş cümlə II dərəcəli üzvlərin iştirakı ilə düzəlir. [4,5,6,11]

**2.** İfadə yazı "Suqovuşan"
**3.** C.Cabbarlı "Türk sağ ikən" şeiri.
**4.** Tərcümə "Bədən üzvləri".

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Dünyada gedən qloballaşma təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından istifadə edilməsini tələb edir və bu, tələbələrin yaradıcılıq qabiliyyətinin inkişafını təmin etməklə onlarda yüksək ünsiyyət mədəniyyəti formalaşdırır.

Kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün ənənəvi təlim metodları ilə yanaşı, yeni - müasir təlim üsullarından da (interaktiv təlim metodlarından) istifadə edilməlidir. Müəllimin tədris etdiyi məşğələ mövzularından əlavə, elmi və bədii ədəbiyyat, müxtəlif dərsliklər, Azərbaycan dili ilə bağlı nəzəri və praktik materiallar əsasında təlim ənənəvi metodlar hesab olunur. Bununla yanaşı, tədris prosesində müasir texnologiyanın tətbiqi ilə tələbələrin Azərbaycan dilində şifahi və yazılı nitqini daha da təkmilləşdirmək üçün prezentasiyaların hazırlanması və təqdim edilməsi dərsin keyfiyyətinə müsbət təsir göstərir. Onlar müxtəlif formalarda, çıxış, məruzə, esse, layihə şəklində təqdim edilə bilər. Bu cəhətdən müxtəlif mövzularla bağlı slaydların hazırlanması, məsələn, ədəbi dil və ritorikanın görkəmli nümayəndələrinin həyat və fəaliyyəti, bu zaman onların əsərlərindən, nitqlərindən parçaların səsləndirilməsi, fotoların nümayiş etdirilməsi, həmçinin KİV-də ədəbi dil normalarının pozulması, kommunikasiyanın müxtəlif növ və vasitələri haqqında sxem və qrafiklərin, illüstrasiyaların hazırlanması müasir təlim metodlarından hesab olunur.

Fənnin məqsədinə uyğun olaraq interaktiv təlim metodlarından: debat, diskussiya, klaster, Venn diaqramı və s. istifadə edilir. Müəyyən bir problemə aid mübahisə olan debatlar vasitəsilə hər qrup öz mövqeyini müdafiə edib qarşı tərəfin arqumentlərini təkzib edərək demokratik dövlətin vətəndaşları kimi ictimai-siyasi hadisələri qiymətləndirməyi və öz nöqteyi-nəzərini müdafiə etməyi öyrənirlər.

Poliloji nitqin növü olan diskussiya tələbələrin qoyulmuş problemlərə və suallara münasibətini öyrənməyə imkan verir, informasiya toplamaq vərdişlərini və fəallığını inkişaf etdirir, fikir mübadiləsinə kömək edir, dinləmək, növbə ilə danışmaq, tolerant-

lıq nümayiş etdirmək bacarıqlarını inkişaf etdirir. Klaster hər hansı bir mövzu və ya fikrin mümkün qədər açılmasına, tələbələrin bu ətrafda geniş, sərbəst düşünməsinə şərait yaradan metoddur. Kəsişən iki və ya daha artıq çevrə üzərində qurulan Venn diaqramı vasitəsilə oxşar və ya fərqli cəhətləri vermək olar ki, bu da müqayisə etmək və ümumiləşdirmə bacarıqlarını inkişaf etdirir.

Bu metodların tətbiqi dərsin keyfiyyətinə müsbət təsir göstərir və qavranılmasını asanlaşdırır.

## Tədris resursları

Tədris prosesinə müəyyən resursların cəlb olunması məqsədəuyğundur. Buraya internet resursları əsasında hazırlanmış maraqlı məlumatlar, müxtəlif televiziya verilişlərindən seçilmiş fraqmentlər, görkəmli şəxslərin nitqlərindən lent yazıları, slaydların nümayişi üçün texniki avadanlıqlar daxildir.

## Sərbəst mövzular:

1. Mənim ailəm
2. Mənim arzum
3. Mən kiçik olanda
4. Dost-dosta tən gərək, tən olmasa gen gərək
5. Ana müqəddəsdir
6. Azərbaycan-Türkiyə qardaşlığı (dostluğu)
7. Qəhrəmanlar ölmür
8. Qarabağ bizimdir
9. Qarabağ şəhidləri və qaziləri
10. İdman sağlamlıqdır
11. Bakı neft şəhəridir
12. İlk müəllimim
13. BDU mənim universitetim
14. Ən çox sevdiyim fəsil

## Tövsiyə olunan ədəbiyyat:

1. Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili, I h., Fonetika orfoepiya orfoqrafiya. Bakı: Şərq-Qərb, 2007, 286 s.

2. S.Cəfərov. Müasir Azərbaycan dili. I h., Leksika. Bakı: Şərq-Qərb, 2007
3. M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. III nəşr, Bakı: Şərq-Qərb, 207, 280 s.
4. G.Abdullayev, Y.Seyidov, A.Həsənov. Müasir Azərbaycan dili, IV h., Bakı: Şərq-Qərb, 2007, 424 s.
5. Y.Seyidov. Azərbaycan dili. Azərbaycan ali məktəblərinin rus bölmələri üçün dərslik. Təkmilləşdirilmiş 10-cu nəşri. Bakı, 2013, 358 s.
6. M.Qurbanova, M.Abdullayeva. Azərbaycan dili (Azərbaycan dilini öyrənmək istəyən xarici vətəndaşlar üçün dərs vəsaiti) təkmilləşdirilmiş 3-cü nəşri. Bakı, 2014, 324 s.
7. M.Qurbanova, M.Abdullayeva. Azərbaycan dili I hissə Fonetika. Leksika (Farsdilli tələbələr üçün dərslik). Bakı, 2011, 126 s.
8. İ.Şəmsizadə, O.Piriyeva, Ş.Abdullayeva, G.Abbasova, İ.Məhərrəmova. Türk ədəbiyyatından seçmələr (Türkdilli tələbələr üçün tərcümə materialları). Dərs vəsaiti. Bakı, 2010, 166 s.
9. İ.Şəmsizadə, O.Piriyeva, Ş.Abdullayeva, G.Abbasova, İ.Məhərrəmova. Azərbaycan dili. Ali məktəblərin hazırlıq fakültəsinin xarici tələbələri üçün dərslik. 608 s.
10. G.Rəhimova, M.Qurbanova, E.Fərəcullayeva, R.Həbibli. Azərbaycan dili (əcnəbi vətəndaşlar üçün) dərslik-170 s., iş dəftəri- 105 s., disk- 389 s. Bakı, 2016
11. K.Mirzəyev, İ.Şəmsizadə, Ş.Abdullayeva, O.Piriyeva, G.Abbasova, İ. Məhərrəmova. Azərbaycan dili (əcnəbi tələbələr üçün dərslik). Almatı-2018, 389 s.

**Sinifdən xaric oxu üçün ədəbiyyat:**

12. M.Qurbanova, R.Mahmudova, X.Manafova. Nitqin inkişafı. Ali məktəblərin hazırlıq şöbələrində təhsil alan tələbələr üçün dərs vəsaiti. Bakı, 2014, 274 s.
13. N.Rzayeva. Y.Xanlarova, X.Əfəndiyeva. Azərbaycan ədəbiyyatı. Xarici tələblərin hazırlıq kursu üçün dərs vəsaiti. Bakı, 2018